www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 5-7 avqust 2017-ci il Şənbə № 163 (6777) Qiyməti 60 qəpik

**Xəbər**

**Hüquqşünas polis qardaşını pult üstündə bıçaqlayıb öldürdü**

yazısı səh.14-də

## Qərbin yeni Qafqaz strategiyası: kimə uduş, kimə fiasko...

# RUSİYA TƏKLƏNİR, İRƏVAN SƏKSƏNİR, BAKIYA ŞANS QAPISI AÇILIR

Ermənistan işğal sponsorunun aqibətini bölüşmək istəmir, ancaq mümkünmü?; Azərbaycanın isə Qərb üçün dəyəri artır, çünki...; **ekspert:** "Ox artıq yaydan çıxıb, Rusiyanın çökdürülməsi prosesinə başlanılıb..."




yazısı səh.8-də

## Putin Bakıya Surət Hüseynov, Ayaz Mütəllibov və Milli Şura vasitəsilə təzyiq edəcək - şok iddialar

"Hazırda Qərb ölkələrində olan bəzi "mühacirlər" də Rusiyadan idarə olunurlar"; **Elçin Mirzəbəyli:** "Surət Hüseynovla Əli Kərimli arasında heç bir fərq yoxdur"

yazısı səh.3-də

**Gündəm**

### "Xalqımızı, dövlətimizi bu böyük bəlalardan qurtara bildik"




**Prezident:** "Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi daha da aşağı düşəcək"

yazısı səh.5-də

### "Qaçqınkom" sədrinin nəvəsinin 200 minlik maşını ilə Bakıda faciə törədildi - 2 ölü

yazısı səh.4-də

### İmtahanda 700 bal toplayan abituriyentlər "Yeni Müsavat"a danışdılar

yazısı səh.10-da

### 80 yaşlı qadının kredit borcu ilə gələn əcəli

yazısı səh.13-də

### Arif Əsgərovun baldızı oğlunun məhkəməsi başladı: dələduzluqla mənimsənilən milyonlar...

yazısı səh.3-də

### "Putinin Abxaziyaya səfəri Qarabağ münaqişəsinin həllinə müsbət təsir etməyəcək"- politoloq

yazısı səh.9-da

### "Qalib" Ermənistan məğlub günündə - "Pirr qələbəsi"nə dəyərdimi?

yazısı səh.11-də

### Sanksiyalar tale ortaqları İran və Rusiyanı küncə sıxır

yazısı səh.9-da

### Rusiyada həbs edilən ölüm dəstəsinin qorxunc hekayəsi

yazısı səh.12-də

### SOCAR Türkiyədəki layihələrə 12.6 milyard dollar xərcləyib

yazısı səh.2-də



*Mehman Əliyev:*

**"Müxalifətin hansısa ciddi uğurlarının olacağını gözləmirəm"**

yazısı səh.7-də



*İsgəndər Həmidov:*

**"Ağdərə-Kəlbəcər yolu açılanda Surət qoşunları geri çəkdi, guya tankları Gəncəyə təmirə aparırdı"**

yazısı səh.6-da



*Yusif Bəkirov:*

**"Pedofillərə qarşı qanun sərtləşdirilməlidir"**

yazısı səh.13-də



# Cavid Qurbanov şəhid anasının problemini nəzarətə götürdü

**“Nəvəsinin müalicəsi üçün dilənən kəlbəcərli şəhid anası İlyasova Sultan Bəylər qızı sosial vəziyyətinin pis olması ilə bağlı Azərbaycan Dəmir Yolları Qapalı Səhimdar Cəmiyyətinin sədri, Kəlbəcərin millət vəkili Cavid Qurbanova heç vaxt müraciət etməyib”.**

Bunu unikal.org-a açıqlamasında “Azərbaycan Dəmir Yolları” QSC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Sevinc Qədirova bildirib.

O deyib ki, Cavid Qurbanov deputatlıq fəaliyyəti dövründə hər zaman seçicilərin etimad, rəğbətini qazanıb və onların problemlərini daim diqqətdə saxlayır:

“Bildiyiniz kimi, Kəlbəcər rayonu 1993-cü il aprelin 2-də Ermənistan tərəfindən işğal olunub. Kəlbəcər rayonunun ərazisi 1936 kvadratkilometr, əhalisinin sayı isə 70 mindən artıqdır. Rayon sakinləri hazırda Azərbaycanın 59 rayonunda məskunlaşıb. Cavid müəllim və onun köməkçiləri hər zaman kəlbəcərlilərlə görüşür. Onların müraciətlərini dinləyir və səslərinin müvafiq strukturlara çatdırılmasında yaxından iştirak edirlər. Həmçinin sosial vəziyyəti pis olan ailələrə də yaxından köməklik göstərilir”.

**Şəhid anasının dilənməsinə gəlincə, S.Qədirova vurğulayıb ki, Sultan İlyasova heç zaman C.Qurbanovla görüşməyib və görüşmək istəməsi ilə bağlı heç vaxt müraciət etməyib:** “Təbii ki, Cavid müəllim hər bir seçicinin müraciətinə diqqətlə və həssaslıqla yanaşır. S.İlyasova da müraciət etsəydi Cavid müəllim ona dəstək verə və yaxından köməklik göstərərdi. Cavid müəllim təkdir, seçicilər isə çox. Həmçinin kəlbəcərlilər Azərbaycanın müxtəlif rayonlarında məskunlaşıb. Cavid müəllimin imkanı yoxdur ki, hər bir kəlbəcərlini yaxından tanısın. Təbii ki, bu mümkün deyil.

Hansısa seçicinin problemi varsa, yaxud nəsə lazımdırsa, bunun üçün deputata müraciət edirlər. Amma təəssüflər olsun ki, S.İlyasova heç zaman Cavid müəllimə müraciət etməyib. Bunun üçün deputatın qəbul siyahısına da baxılıb və belə bir müraciət qeydə alınmayıb".

S.Qədirova vurğulayıb ki, Cavid Qurbanov şəhid anasının problemini yaxından izləyəcək və lazimi köməkliklərin göstərilməsi üçün müvafiq qurumlara müraciət edəcək.

Qeyd edək ki, hər həftə millət vəkili Cavid Qurbanovun səlahiyyətli nümayəndəsi kəlbəcərli seçicilərlə görüşür, onların qayğı və problemlərinin həllinə yardımçı olur.

# NATO Kiyevdə hərbi parad keçirəcək

**NATO-ya üzv ölkələrin ordularının nümayəndələri avqustun 24-də Ukraynanın müstəqilliyinin 26-cı ildönümü münasibətilə Kiyevdə keçiriləcək hərbi parada qatılacaq. TASS xəbər verir ki, bunu Ukraynanın müdafiə naziri Stepan Poltorak bildirib.**

“Bu il bizim tərəfdaşlarımızın böyük əksəriyyəti Ukraynanın müstəqillik günü ilə bağlı paradda iştirak etmək istədiklərini bildirdi. Alyansın silahlı qüvvələrinin nümayəndələri bizimlə birgə olacaq”, - deyə nazir qeyd edib.

Onun sözlərinə görə, Kiyev NATO-ya üzv 29 ölkədən iştirakçı qəbul etməyə hazırdır. Hələlik altı ölkə öz iştirakını təsdiqləyib. Xarici qonaqlarla yanaşı, hərbi paradda təxminən 4,5 min Ukrayna hərbçisi iştirak edəcək (virtualaz.org).

# Goranboyda maşın aşdı, qadın və azyaşlı yaralandı

**Bakı-Qazax yolunda yol qəzası baş verib. ARB 24 xəbər verir ki, hadisə magistralın Goranboy rayonu, Dəliməmmədli qəsəbəsindən keçən hissəsində qeydə alınıb. Minik avtomobilinin sürücüsü idarəetməni itirib, nəticədə maşın yolun kənarına aşıb.**

Qəza zamanı qadın sürücü və maşındakı azyaşlı xəsarət alıb. Yaralılar Gəncədəki xəstəxanalardan birinə aparılıb.

# Mərkəzi Bank manatı sabitləşdirən amilləri açıqlayıb

**Bu ilin 6 ayında manatın rəsmi məzənnəsi banklararası əqdlər üzrə orta məzənnə (hərraclar və hərracdan kənar əməliyyatlar nəzərə alınmaqla) əsasında müəyyən edilib.**

“APA-Economics” Azərbaycan Mərkəzi Bankının (AMB) 2017-ci ilin yanvar-iyun ayları üzrə Pul Siyasəti İcmalına istinadən xəbər verir ki, dövr ərzində tədiyə balansının yaxşılaşması, eləcə də dövlət sektorunun xarici valyutada bir sıra öhdəliklərinin valyuta bazarından kənarda tənzimlənməsi valyuta bazarına tarazlaşdırıcı və manatın məzənnəsinə sabitləşdirici təsir göstərib.




Sənəddə qeyd olunub ki, yanvar və fevral ayının birinci yarısında bahalaşan ABŞ dolları fevral ayının ikinci yarısından nisbətən ucuzlaşmağa başlayıb, ikinci rüb ərzində isə sabitləşib.

“2016-cı ilin sonuna ABŞ dollarının manata qarşı məzənnəsi 1,7707 manat səviyyəsində olubsa, 01.02.17 tarixində özünün dövr üzrə maksimum həddinə - 1,9200 manata qalxıb, 26.05.17-01.06.17 tarixlərində isə minimum həddinə - 1,7020 manata enib. 2017-ci ilin I yarısının sonuna manat ABŞ dollarına nəzərən 3,9% möhkəmlənib. 2017-ci ilin I yarısı ərzində 1 ABŞ dollarının manata qarşı orta günlük məzənnəsi isə 1,74 manat təşkil edib. Dövr ərzində ikitərəfli məzənnələrin dinamikası çoxtərəfli məzənnənin dinamikasına da təsir göstərib. Belə ki, manatın qeyri-neft sektoru üzrə ümumi ticarət çəkili real effektiv məzənnəsi 1,4% bahalaşıb. NEM-nin 0,8% ucuzlaşması REM-ə azaldıcı, tərəfdaş ölkələrlə inflyasiya fərqləri isə artırıcı təsir edib”, - deyə sənəddə vurğulanıb.

**Pul Siyasəti İcmalında o da vurğulanıb ki, yeni məzənnə rejiminin tətbiqi Mərkəzi Bankın ehtiyatlarının zəruri səviyyədə qorunmasına imkan verir:** “30 iyun 2017-ci il tarixinə Mərkəzi Bankın xarici valyuta ehtiyatları 4964,1 mln. dollar təşkil edib. Mərkəzi Bankın valyuta ehtiyatlarının həcmi kifayətlilik üzrə beynəlxalq təcrübədə qəbul edilmiş normaları (3 aylıq mal və xidmət idxalını örtmək, milli valyuta ilə pul təklifinə nisbət və s) üstələyib”.

# Samarada azərbaycanlı ticarətçilər kütləvi yoxlamaya məruz qalıblar

**Samarada hüquq-mühafizə orqanlarının əməkdaşları azərbaycanlılara məxsus bazarda və meyvə-tərəvəz bazasında reyd keçiriblər.**

“Report”un Rusiya bürosunun məlumatına görə, polis Samarada Rusiya Daxili İşlər Nazirliyinin Samara vilayəti üzrə Baş İdarəsinin Ekstremizə qarşı Mübarizə Mərkəzinin iki əməliyyatçısına silahlı hücum edən, milliyyətcə özbək olduğu ehtimal olunan asiyalını axtarıb.

Əməliyyat-axtarış tədbirləri zamanı polis əməkdaşları şübhəli şəxsin dəfələrlə görüldüyü və işlədiyi güman edilən Kirovski rayonundakı meyvə-tərəvəz bazasına reyd təşkil edib. Əməliyyat zamanı bazarda işləyən bir neçə azərbaycanlı şəxsiyyəti müəyyən edilməsi üçün saxlanılıb.

Samara vilayətinin Azərbaycanlılar Liqasının sədr müavini, istefada olan polis polkovniki Rəhman Əliyev bildirib ki, saxlanılanlar qısa müddətdən sonra buraxılıblar.

Onun sözlərinə görə, Samarada olan diasporumuz azərbaycanlılarla bağlı bütün proseslərə nəzarət edir.

Qeyd edək ki, istintaq versiyasına görə avqustun 2-də sənədlərin yoxlanışı zamanı şübhəli şəxs iki polis əməkdaşına hücum edib, onların döş qəfəsi nahiyəsinə azı bir bıçaq zərbəsi endirib.

Hər iki polis yerli xəstəxanaya yerləşdirilib, onlardan birinin vəziyyəti ağırdır. Şübhəli şəxsin fotosu bütün polis şöbələrinə paylanılıb.



# Azərbaycan snayperləri Qazaxıstanda keçirilən yarışların növbəti mərhələsinə yüksəliblər

**“Beynəlxalq Ordu Oyunları - 2017" çərçivəsində Qazaxıstanın Otar hərbi bazasında keçirilən "Snayper həddi" müsabiqəsində snayper cütlükləri yarışında iştirak edən Azərbaycan snayperləri uğur qazanaraq növbəti mərhələyə keçiblər.**

APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, Azərbaycan snayperləri ilə yanaşı Rusiya, Belarus, Çin, Qazaxıstan, Özbəkistan, Banqladeş və Monqolustan snayperləri də növbəti mərhələyə yüksəliblər.

Ermənistan, İran, Yunanıstan, Venesuela, Qırğızıstan, Zimbabve, Hindistan, Tailand və Cənubi Afrika Respublikasının snayperləri isə zəif nəticə göstərərək yarışları tərk ediblər.

# SOCAR Türkiyədəki layihələrə 12.6 milyard dollar xərcləyib

**“Azərbaycan Dövlət Neft Şirkəti - ARDNŞ Türkiyənin ən böyük xarici sərmayəçilərindəndir”. Oxu.az xəbər verir ki, bunu “SOCAR Turkey Enerji A.Ş.”nin xarici əlaqələr üzrə rəhbəri Murad LeCompte deyib.**

O bildirib ki, şirkət Türkiyədə investisiyalara 2008-ci ildə başlayıb. Şirkətin iri investisiya layihələri arasında “Petkim”, “Petlim”, 2018-ci ildə fəaliyyətə başlayacaq “STAR” Neft Emal Zavodu, yenə 2018-ci ildə ilk qazın nəql ediləcəyi TANAP var.

Murad LeCompte investisiyaların həcminin 12.6 milyard dollara çatdığını vurğulayıb. Məlum olub ki, layihələr tamamlandıqda bu məbləğ 19.5 milyard dolları keçəcək: “Bu qədər böyük bir investisiyanın Türkiyə üçün çox əhəmiyyətli olduğunu düşünürəm”.

# “Azərbaycan qızıl ehtiyatını satmayıb” - Neft Fondundan açıqlama

**Azərbaycan Respublikası Dövlət Neft Fondu Azərbaycanın qızıl ehtiyatının satılması ilə bağlı xəbərlərə münasibət bildirib.**

ARDNF-dən musavat.com-a verilən məlumata görə, ARDNF-in investisiya portfelinə daxil olan qızılın miqdarı hazırda 30 175 kq (970 146 troya unsiyası) təşkil edir və cari ildə qızılın miqdarında heç bir dəyişiklik baş verməyib:

“Bir daha qeyd edirik ki, ARNDF-in investisiya portfelinə daxil olan qızılın Mərkəzi Bankdan ARDNF-in inzibati binasında yerləşən xəzinəyə daşınması prosesi 2017-ci ildə tam başa çatdırılıb. ARDNF-in investisiya portfelinə daxil olan qızıl yatırımları ilə bağlı məlumatlar ARDNF-in rüblük və illik hesabatları vasitəsi ilə mütəmadi olaraq ictimaiyyətə çatdırılır”.

# Müəllimlərin işə qəbulu üzrə imtahandan 4 nəfər çıxarılıb

**“Müəllimliyə imtahan verən bəzi şəxslərin nəticələri uğurlu deyil, davranışları seçdikləri peşəyə uyğun gəlmir”.**

Bu il ümumi təhsil müəssisələrinə mərkəzləşdirilmiş qaydada keçirilən müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahan mərhələsindən 4 nəfər telefon və elektron əşyalar keçirməsi səbəbindən çıxarılıb.

APA-nın xəbərinə görə, Təhsil Nazirliyinin sektor müdiri Rasim Məmmədov bildirib ki, telefon və elektron əşyaların imtahana keçirilməsinin qadağan edildiyi barədə xəbərdarlıqlara baxmayaraq, hər kəs buna cəhd edir. 4 nəfərin bu səbəbdən imtahandan çıxarıldığını deyən R.Məmmədov qeyd edib ki, müəllimliyə imtahan verən bəzi şəxslərin nəinki nəticələri uğurlu deyil, davranışları da seçdikləri peşəyə uyğun gəlmir: “Qaydaları pozurlar. Etik davranışları müəllimliyə yaraşmır”.

# AYİB TANAP layihəsinə 500 milyon dollar kredit ayıracaq

**Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) İdarə Heyəti bu il oktyabr ayının 18-də «Transanadolu» boru kəməri (TANAP) layihəsinin reallaşdırılması üçün 500 milyon dollar həcmində kreditin ayrılması məsələsini müzakirə edəcək.**

«Trend»in məlumatına görə, bu vəsait “Cənub Qaz Dəhlizi” QSC-yə təqdim ediləcək.

Qeyd edək ki, TANAP layihəsinin ümumi dəyəri 8,6 milyard dollar təşkil edir.

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017





# Putin Azərbaycana Surət Hüseynov, Ayaz Mütəllibov və MŞ vasitəsilə təzyiq edəcək - şok iddialar

## "Hazırda Qərb ölkələrində olan bəzi "mühacirlər" də Rusiyadan idarə olunurlar"

**Uzun müddətdir yoxa çıxan, heç bir media orqanına danışmayan keçmiş baş nazir Surət Hüseynovun qəfildən sosial şəbəkələrdə peyda olması, yerli mediaya müsahibə verməsi ciddi rezonans doğurub.**

Həmçinin Surət Hüseynovun ardından Rusiyanın adamı kimi tanınan digər bir şəxsin - eks-prezident Ayaz Mütəllibovun da onu dəstəkləyən açıqlamalar verməsi şübhələri daha da artırıb və müəyyən qədər aydın təsəvvürlər yaratmağa başlayıb. Söhbət ondan gedir ki, regiondakı indiki mürəkkəb şəraitdə və xüsusilə 2018-ci ilin prezident seçkilərinə təxminən 1 il qalmış Rusiyanın əlaltıları kimi xarakterizə olunan şəxslərin fəallaşması müəyyən mətləblərdən xəbər verir. Maraqlıdır, Rusiya bu dəfə "5-ci kolon"unu bu tip adamlar üzərindən körükləyir?

Bir faktı da qeyd edək ki, 2013-cü ilin prezident seçkiləri ərəfəsində Rusiyanın projesi olan Milli Şura ərsəyə gəlmişdi. Diqqətçəkən məqamlardan biri də odur ki, Surət Hüseynovun açıqlamalarına Milli Şura reaksiya vermir. Cəhdlərimizə baxmayaraq, MŞ üzvlərini bu məsələ ilə bağlı biz də heç cür danışdıra bilmədik...

Sabiq baş nazirin sükutu pozaraq, verdiyi son müsahibədə AXC-Müsavat hökumətini hədəfə almasına, ən ağır təhqir formasında ittihamlar səsləndirməsinə ölkə daxilindəki müxalif qurumlardan yalnız Milli Şura susdu. Halbuki qurumun rəhbərliyində AXC-Müsavat hökuməti dövründə yüksək vəzifələrdə çalışmış kifayət qədər insanlar var. Təkcə Əbülfəz Elçibəy hakimiyyətində dövlət katibi postunu tutmuş, AXCP sədri Əli Kərimlinin adını qeyd etmək kifayət edir. Hər gün özünün facebook səhifəsində statuslar paylaşan sabiq dövlət katibi sanki təmsilçisi olduğu hökumətin ünvanına səslənən ittiham, təhqirlərdən xəbərsizdir. Milli Şuranın Surət Hüseynovla münasibətləri korlamamaq istəyi göz önündədir. Belə iddialar var ki, 2013-cü ilin prezident seçkilərində yaratdığı "Milyarderlər İttifaqı"nın iflasını görən rəsmi Moskva gələnilki seçkilərdə Surət Hüseynov, Ayaz Mütəllimov və Milli Şura vasitəsilə ölkədəki prosesləri qarışdırmağa, iqtidara təzyiq etməyə çalışa bilər. Hər halda, hazırda gedən proseslər bunu təxmin etməyə əsas verir.

**BAXCP sədrinin müavini, politoloq Elçin Mirzəbəyli bildirdi ki, Surət Hüseynov, Ayaz Mütəllibov və bu kimi iliyinədək ifşa olunmuş siyasi ölüləri yenidən diriltmək istəyən qüvvə əslində növbəti dəfə acizliyini, Azərbaycanda ciddi dayaqlara malik olmadığını nümayiş etdirir:** "Azərbaycan müstəqil dövlət kimi formalaşıb və Azərbaycan xalqı istiqlalın nə demək olduğunu yaxşı başa düşür. Amma bu o demək deyil ki, "beşinci kolon"un "gizli qvardiyası" yoxdur. Var, təbii ki... Amma indi nəbz yoxlaması baş verir. Ölülər, vurulmuş, ifşa olunmuşlar danışdırılır, cəmiyyətin reaksiyası öyrənilir. Ona görə də hətta siyasi meyit saydığlarımızın da canlanmalarına ciddi diqqət ayırmalı və bir millət olaraq müstəqillik və bu müstəqilliyə ən böyük təhdid olan Rusiya məsələsində dəyişməz və sərt bir mövqeyə sahib olduğumuzu nümayiş etdirməliyik. Ayaz Mütəllibovun Surət Hüseynovu dəstəkləməsində qeyri-adi heç nə yoxdur. İkisinin də beyni eyni mərkəzdə yuyulub və proqramlaşdırılıb. Ayaz Mütəllibovun dilə gəlməsinin səbəblərindən biri də kimlərəsə mesaj vermək niyyəti ilə bağlı ola bilər. Yəni "mən də varam". Əslində bu proses uzun müddətdir ki, davam edir. Rus dili, Azərbaycan xalqının etnogenizi, Azərbaycan dilinin mənşəyi ilə bağlı məsələlərin gündəmə gəlməsi təsadüfi deyil. Hücum bütün istiqamətlərdə davam edir. Məqsəd isə millətimizin dövlətə olan etimadını, Azərbaycanın müstəqilliyinə olan inamını və özgüvənini sarsıtmaqdan ibarətdir. Bütün bunlar mənəvi və siyasi "haker" hücumlarıdır. İmmun sistemimizi, müqavimətimizi param-parça etmək, sonra isə öz planlarını gerçəkləşdirmək istəyirlər. Məqsəd bizi bir millət kimi yox etməkdən, əzməkdən, aşağılayaraq ən müti, rəzil statusla barışmağa vadar etməkdən ibarətdir. Buna görə də belə məsələlərdə güzəşt olmamalıdır. İndi xırda dedi-qoduların, qurşaqdan aşağı söhbətlərin yeri deyil. Dövlətimizə qarşı uzanan əlləri elə kəsməliyik ki, bir daha yerində yeni xəyanətlər "cücərməsin". Milli Şura adlanan xəyanət yuvasından əgər hər hansı bir etiraz çıxsaydı, o zaman təəccüblü olardı. Bu xəyanət yuvasının uzantıları Fransada, Gürcüstanda və digər ölkələrdə ermənilərlə birgə hərəkət edir, erməni diasporunun maliyyə imkanlarından qidalanırlar. Əslində bu gün Milli Şurada təmsil olunan və Kremlin bu layihəsinə dəstək verənlərin artıq Milli Azadlıq Hərəkatına, Xalq Cəbhəsinə heç bir aidiyyəti yoxdur. Bu adamlar Rusiyanın layihəsində iştirak etməklə keçdikləri yola, ideallarına xəyanət ediblər. İndi Surət Hüseynovla Əli Kərimli arasında heç bir fərq yoxdur. Surət Hüseynov da Azərbaycan dövlətçiliyinə qarşı savaş açmışdı, Əli Kərimli də bu savaşın içində və düşmən cinahındadır. Şübhəsiz ki, bu proseslər eyni mərkəzdən və eyni məqsədlə idarə olunur. Gözə görünməyənlər - Rusiyada, Türkiyədə, ABŞ-da, Avropa İttifaqının ayrı-ayrı ölkələrində olanlar da zamanla hərəkətə gələcəklər. Hazırda Qərb ölkələrində olan bəzi "mühacirlər" də Rusiyadan idarə olunurlar. Onların qarşısına Azərbaycanın beynəlxalq nüfuzunu zədələmək, Qərbin dəstəyindən məhrum etmək təlimatı qoyulub. Rusiyanın Azərbaycan üçün hazırladığı "beşinci kolon"un təmsilçilərini təkcə ölkənin sərhədləri çərçivəsində axtarmaq sadəlövhlük olardı. Onların bir qismi xaricdədirlər, həm də müxtəlif statuslarla. Mən əminəm ki, Kremlin oyunları yenə də iflasa uğrayacaq, amma arxayınlaşmaq olmaz. Müqavimətimizi artırmalı, istiqlalımızı göz bəbəyimiz kimi qorumalıyıq".

### Elçin Mirzəbəyli: "Surət Hüseynovla Əli Kərimli arasında heç bir fərq yoxdur"

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev Rusiyanın Azərbaycanda özlərinə bağlı hakimiyyətin olmasında daim maraqlı olduğunu qeyd etdi:** "1993-cü ildəki dövlət çevrilişi hadisəsi də birbaşa Rusiyanın oyunu idi. Gəncədəki rus diviziyasının rəhbəri Şerbakin dəstəyi ilə o hadisələr baş verdi. Milli Şura ilə bağlı da məsələ tam çılpaqlığı ilə ortadadır. Rusiya Dumasının sədri Volodin bu məsələni nəzarətinə götürmüşdü. İndiki proseslərdən əvvəl də "Milyarderlər İttifaqı" yaradılmış, hətta Dağıstanın prezidentini belə ora daxil etmişdilər. Moskvadakı Cərrahiyyə İnstitutundakı iclasların görüntüləri belə bizlərdə var idi. Orada nələrin müzakirə olunduğu açıq şəkildə görünürdü. Zaman-zaman özlərinə bağlı şəxslərdən Rusiya istifadə edib. Amma hesab edirəm ki, adını çəkdiyiniz şəxslər və qurumun Azərbaycanda nəyəsə təsir etmək imkanları yoxdur. Keçid dönəmində vəziyyətdən istifadə etdilər, ordu quruculuğu o zaman başa çatmamışdı, müharibənin ən fəal mərhələsi gedirdi. Həmin vaxt çevrilişə cəhd olundu. Amma seçkilər zamanı Azərbaycanda Rusiya daim öz oyunçularını ortaya atıb. Son prezident seçkilərində də Milli Şura məhz bu məqsədlə yaradılmışdı. O vaxt ən çox inandıqları adamları bu məsələyə yönəltdilər. Amma məqsədlərinə nail ola bilmədilər. Vətənpərvər insanlar, Azərbaycanın ictimai rəyi bu niyyəti darmadağın etdi. İndi də belə vəziyyətlər mövcuddur və bundan sonra olacağı təbiidir. Nə qədər ki, Qarabağ problemi həll olunmayıb, ölkəmizdəki riyakar maraqlar sönməyib, bunlar baş verəcək. Rusiya çalışacaq ki, Azərbaycanla bağlı məqsədini həyata keçirmək üçün burada özünə tabe olan qüvvələri hakimiyyətə gətirsin. Bununla da ölkəmizi daim təzyiq, təsir altında saxlasın. Hesab edirəm ki, artıq bu məsələlər tükənmək üzrədir. Bu cür şəxslərdən, sadəcə, istifadə etmək imkanları var. Onlar heç bir nüfuzları olmayan, Azərbaycan siyasətinin zibilxanasına getmiş insanlardır. Belə şəxslərlə heç bir məqsədlərinə nail ola bilməyəcəklər. Surətin ən güclü vaxtlarında 9 fevral bəyanatı ilə onun haqqında sözümü demişəm. Zaman da göstərdi ki, biz haqlı idik. İndi onun ən zəif vaxtlarıdır və bu vaxt ona cavab verməyi lüzum bilmirəm. Jurnalistlər, bəzi dostlar sosial şəbəkələrdə ona cavablar veriblər. Məncə, Ayaz Mütəllibovun da, onun da fikirlərinə əhəmiyyət verməmək lazımdır. Hər şey ortadadır və "görünən dağa bələdçi lazım deyil".



### Fərəc Quliyev: "Görünən dağa bələdçi lazım deyil"

**Milli Şuranın iddialarla bağlı mövqeyini öyrənmək mümkün olmadı.**

❑ **Cavanşir ABBASLI**

# Arif Əsgərovun baldızı oğlunun məhkəməsi başladı: dələduzluqla mənimsənilən milyonlar...

**Nəqliyyat Nazirliyinin Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə birləşdirilməsindən sonra işsiz qalan nəqliyyat nazirinin müavini Arif Əsgərovun baldızı oğlu Emil Hüseynov hakim qarşısına çıxarılıb.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində külli miqdarda dələduzluqda təqsirləndirilən Emil Hüseynovun cinayət işi üzrə məhkəmə iclası başlayıb. Hakim Zeynal Ağayevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Daha sonra dövlət ittihamçısı ittiham aktını elan edib. Elan olunmuş ittiham üzrə E.Hüseynov özünü qismən təqsirli bildiyini deyib. Məhkəmənin növbəti iclası avqustun 11-nə təyin edilib.

E.Hüseynov hazırda ev dustağıdır. Onun barəsində olan həbs-qətimkan tədbiri bir müddət əvvəl dəyişdirilib və o, azadlığa çıxıb. E.Hüseynov bir neçə nəfərə qarşı külli miqdarda dələduzluqda təqsirləndirilir. O, Tural Hüseynovun 382 min dollar, Namiq Mehdiyevin 80 min manat, Emil Məmmədovun 2 milyon 500 min dollar, Mərziyyə Rzayevanın isə 19 500 manat pulunu dələduzluq yolu ilə ələ keçirib.

O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda törəldildikdə) maddəsi ilə ittiham olunur. Cinayət işi materiallarına əsasən, E.Hüseynov bu pulları Gürcüstandan mal gətirmək adı ilə alıb. E.Hüseynov 2016-cı ilin dekabr ayında "İnterpol" xətti ilə Qazaxıstanda həbs edilərək Azərbaycana təhvil verilib. Cinayət əməlinə görə həbs edilən E.Hüseynovun barəsində Səbayel Rayon Məhkəməsi həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz edilməsi qərarı çıxarıb.

Qeyd edək ki, Arif Əsgərovun digər baldızı oğlu Rahib Hüseynov da dələduzluqda təqsirli bilinərək həbs edilmiş, daha sonra azadlığa buraxılmışdı. Rahib Hüseynovun adı 48 milyon manatlıq mənimsəmə işində hallanır.

Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışıb. A.Əsgərov 2015-ci ildə prezidentin fərmanı ilə tutduğu vəzifədən azad edilib. Başqa bir fərmanla o, nəqliyyat nazirinin müavini təyin edilib.

Bu dələduzluq işlərində A.Əsgərovun oğlu, "Liman Group" şirkətinin rəhbəri Elnar Əsgərovun da adı hallanır. Arif Əsgərovun oğlunun isə ölkəni tərk etdiyi bildirilir.

❑ **İlkin MURADOV**

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017

# “Qaçqınkom” sədrinin nəvəsinin 200 minlik maşını ilə Bakıda faciə törədildi



## Bahalı avtomobillə törədilən qəzada 2 nəfər ölüb, 2 nəfər yaralanıb; məsələyə BDYPİ rəisi münasibət bildirdi

**Bakının Heydər Əliyev prospektində Qaçqın və Məcburi Köçkünlərin işi üzrə Dövlət Komitəsinin sədri, baş nazirin müavini Əli Həsənovun nəvəsi Nail Allahverdiyevə məxsus “Mercedes Galendewagen” markalı, Az 10 PP 203 dövlət nömrə nişanlı avtomobillə dəhşətli qəza törədilib. Qəza zamanı Mehdi Ramil oğlu Əliyev və piyada Vaqif Əsədov həlak olublar. Hadisə baş verən zaman yol kənarında dayanan daha iki piyada, Türkiyə vətəndaşları - Mutallib Tekiş və Songül Tekiş xəsarət alıb.**

Yaralılardan birinin ayağı qopub. Belə məlumatlar var ki, N.Allahverdiyev hadisədən əvvəl qırmızı rəngli bir avtomobilin sürücüsü ilə “Maga” adlı kafedə olublar. Sonra isə nazir müavininin nəvəsinə məxsus “Mercedes Galendewagen”lə tanışına məxsus maşınla yarışa çıxıblar. Şəhərin içindəki yarışma gözlənilən nəticə ilə sonuclanıb, ötüşmə zamanı dəhşətli qəza baş verib “Gelandewagen” yolda dayanan piyadaları vurub, sonra isə yaxınlıqdakı binaya çırpılıb.

Qəza zamanı dünyasını dəyişən Mehdi Əliyev nazir müavinin nəvəsinin maşınında olub. Onun sükan arxasında olması xəbəri də var. Qeyd olunur ki, M.Əliyev N.Allahverdiyevin sürücüsü olub. Dəhşətli qəzadan sonra nazirin nəvəsi zorla maşından düşərək canını qurtarıb. Onun sonrakı taleyi haqda məlumatlar gizlədilir. Hətta onun maşında olması da təkzib edilir. Sahibi olduğu elit-barın işçiləri isə mediaya deyiblər ki, Əli Həsənovun nəvəsinin durumu yaxşıdır, ailəsinin yanındadır.

Yayılan məlumatlara görə, 1995-ci il təvəllüdlü Nail Allahverdiyev yaşının azlığına baxmayaraq artıq böyük kapitala sahib biridir. O, məşhur “Soho” klubuna sahiblik edir. Onun ötən ayın 19-da Dövlət Sərhəd Xidmətinin rəisi Elçin Quliyevin qızı ilə toy mərasimi olub. Olayla bağlı Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, polis general-mayoru Ramiz Zeynalov baş verən dəhşətli avtomobil qəzası haqda danışıb.







**O, ölkə.az-a açıqlamasında deyib:**

“Baş verən hadisə ilə əlaqədar da geniş məlumatım yoxdur. Çünki tədbirdə olmuşam. Hadisənin başvermə səbəbləri Bakı Şəhər Dövlət Yol Polisi İdarəsi tərəfindən araşdırılır. Şübhəsiz ki, araşdırıldıqdan sonra məsələyə obyektiv qiymət veriləcək”.

Nərimanov Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, qəza nəticəsində “Mercedes Gelandewagen” markalı avtomobilin sürücüsü Mehdi Əliyev və piyada Vaqif Əsədov ölüb. Hadisə baş verən zaman yol kənarında duran daha iki piyada, Türkiyə vətəndaşları - Mutallib Tekiş və Songül Tekiş xəsarət alıb. Onlar xəstəxanaya yerləşdiriliblər. Polisdən həmçinin bildirilib ki, baş vermiş qəza hadisəsi ilə bağlı Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti qaydalarını pozma - iki və daha artıq şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.

Olaydan sonra hüquq-mühafizə orqanları açıqlama verməyə tələsmirlər. Bunun əsas səbəbi kimi qəzanı Əli Həsənovun nəvəsinin törətdiyi göstərilir. Xatırladaq ki, Ə.Həsənov 2014-cü ilin martında məmur övladlarının özbaşınalığına, “avtoşluğuna” münasibət bildirərkən demişdi ki, məmurlar övladlarına nəzarət etməlidir.

**Sitat:** “Mənim də övladlarım var. Sizin xəbəriniz var o kimdir? Onu heç kim tanımır. Hər bir məmur öz övladına nəzarət etməlidir”.

Bu dəhşətli qəza baş nazir müavininin ödladlarının övladını cəmiyyətə tanıtdırdı. Belə tanıtıma isə cəmiyyətin heç ehtiyacı yox idi.

Daha əvvəl isə Əli Həsənovun nəvəsinin yarıçılpaq qızlarla əyləndiyini əks etdirən fotolar da mediada və sosial şəbəkələrdə yayılmışdı.

❑ **E.HÜSEYNOV**

# “Gelandewagen”i məmur övladlarına sevdirən sirlər

## Ekspert: “Avtomobilin bahalı olması onun heç də tam təhlükəsiz olması anlamını vermir”

**Son zamanlar “Porsche” və “Gelandewagen” markalı avtomobillərin törətdikləri xeyli sayda qəzalar ölümlə nəticələnir. Əksər hadisələrin motivində isə bu avtomobillərin yüksək sürətlə idarə olunması və yol hərəkəti qaydalarının digər formalarda kobud şəkildə pozulması dayanır. Əsasən də bəzi məmur və oliqarx övladlarının kobudcasına idarə etdikləri bu iki dünyaca məşhur avtomobil modellərini nə qədər “ölüm arabası” adlandırsaq da, əslində onların quruluşu və komfortu ölümün qarşısını almaq üçün hesablanıb. Elə bu avtomobilləri baha edən nüans da məhz budur.**



Məsələnin başqa bir tərəfi də bəzi məmurların harınlamış övladlarının nə üçün məhz yuxarıda qeyd etdiyimiz avtomobil modellərinə üstünlük verməsidir. “Porsche” və ona olan marağın səbəbləri barəsində daha öncəki saylarımızda məlumat vermişdik. Bəs “Gelandevagen”i oliqarx övladlarına sevdirən nədir?

“Mercedes-Benz G-klass” modelləri 1979-cu ildən bu günə kimi “Mercedes-Benz” markasının istehsal etdiyi tam ölçülü yolsuzluq maşınlarıdır. Bunların arasında “Mercedes- Gelandewagen” illərdir ki, dünyada məşhurdur, lakin Azərbaycandan fərqli olaraq, onu şəhərin mərkəzi küçələrində deyil, əsasən yolsuzluq şəraitində istifadə edirlər.

Avtomobilin ilk olaraq NATO hərbçilərinin sifarişi əsasında hazırlandığı da deyilir. Lakin sonradan avtomobilin xərcləri çox, detalları baha olduğu üçün hərbiçilər bunu uyğun saymayıblar. Bildirilir ki, avtomobilin əsas sifarişçisi İran şahı Məhəmməd Rza Pəhləvi olub. Pəhləvi o vaxt “Mercedes-Benz” konserninin əsas payçılarından biri idi. Onun bu avtomobili sifariş etməkdə məqsədi isə küçələrdə “avtoşluq” etmək deyil, İrandan quru yolla qaçmaq olub.

Buna görə də “Gelandewagen”i şah avtomobili də adlandırırlar. Əfsanəvi alman yolsuzluq avtomobilinin Timati, Arnold Şvartsenegger, Roma papası, Tina Törner, Mixail Jvanetskiy, Maykl Duqlas və Bred Pit kimi məşhur sahibləri var. Bəlkə də ölkəmizdə məmur övladlarının bu modelə maraq salmalarının da əsil səbəbi, elə bu nüansdır.

Avtomobilin son illərdə istehsal edilən modellərinin qiyməti 150-200 min dollar və daha bahadır.

Sərt görünüşə və kobud səsə malik olan avtomobilin texniki parametrləri də çox yüksəkdir. “Gelandewagen” barəsində danışan avtomobil həvəskarlarının maraqlı bir cümləsi var. Bildirirlər ki, “Gelandewagen” elə bir avtomobildir ki, bütün yollar onun üçün eyni dərəcədə rahatdır.

Təəssüf ki, bu cür avtomobili normal qaydada sürə bilməyənlər də az deyil...

**Ekspert Elməddin Muradlı “Yeni Müsavat”a bildirib ki, artıq ölkədə “Gelandewagen” sürücülərinin sayı xeyli artıb:** “Bu avtomobilin köhnə modelləri elə də baha deyil. Yəni 40-50 min manatı olan, bu avtomobilin köhnə modelini ala bilir. Ancaq məmur övladları, biznesmenlərin sürdükləri isə daha çox yeni modellərdir. Onların törətdikləri ağır qəzaların qarşısını almaq üçün cənab prezident sərt addımlar atıb. Məsələn, ”Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədr müavini olmuş Mübariz Mədətovun oğlu Xalid, məşhur tarzənin ailəsini maşınla vurdu və iki nəfər öldü. Dərhal atası işdən çıxarıldı, özü də həbs olundu. Bu, artıq cəzanın ən ağır forması idi. Dəfələrlə də xəbərdarlıq olundu ki, məmur övladları özlərini yığışdırsınlar".

**E. Muradlı bildirib ki, “Mercedes”in bütün modellərində təhlükəsizlik qaydaları çox yüksək səviyyədə qurulub:** “Getdikcə də bu, təkmilləşdirilir. Lakin heç də "bu bahalı avtomobildir" deyib, tam rahat hərəkətlər etmək olmaz. Qəzalardan görürük ki, bahalı avtomobillər nə hala düşür, hətta dərhal alışıb yana bilir. Ona görə də bahalı avtomobil sürücüləri anlamalıdırlar ki, heç bir avtomobildə insan ölümdən sığortalanmayıb. Dünyada elə bir avtomobil yoxdur ki, təhlükəsizlik baxımından tam güvənilər olsun. Bahalı avtomobillərdə qəzaya düşən xeyli sayda varlı şəxslərin övladları olub ki, onlar sağ qalmayıblar. Məsələn, bir müddət öncə Babək prospektində “Porsche” “Zil” markalı avtomobilə dəymişdi və iki nəfər yanıb öldü. O da bir bahalı hadisə idi. Eyni zamanda “Hafka” kimi tanıdığımız Hafiz Məmmədovun oğlunun “Maseratti”sinin də Rəşid Behbudov küçəsində arxa təkəri bir balaca səkiyə dəyməklə maşın od tutub yandı. Ona görə də diqqətli olmaq lazımdır, çünki hadisə qaçılmazdır".

❑ **Əli RAİS**

# Keçmiş MTN polkovniki məhkəmədən bəraət istəyib

**Bakı Hərbi Məhkəməsində ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Baş Əks-Kəşfiyyat İdarəsinin sabiq şöbə rəisi, polkovnik Mirəziz Əsgərovun cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

“Report”un məlumatına görə, hakim Elbəy Allahverdiyevin sədrliyi ilə keçirilən prosesdə zərərçəkmiş Vidadi Əzizovun ölkədə olmadığı və məhkəməyə gələ bilmədiyi elan olunub.

İclasda təqsirləndirilən şəxsin nümayəndəsi mülki iddianın həcminin artırılmasını tələb edib: “Həmçinin şifahi vəsatət verərək məhkəmə istintaqının təzələnməsini istəyirik”.

Vəsatət rədd edilib.

Daha sonra təqsirləndirilən şəxsin vəkili Fazil Nehmətov müdafiə çıxışı edib. O, hüquqlarını müdafiə etdiyi şəxsin barəsində bəraət hökmünün çıxarılmasını istəyib.

Son sözlə çıxış edən təqsirləndirilən M.Əsgərov günahsız olduğunu və ittihamları qəbul etmədiyini söyləyib. Sabiq MTN polkovniki barəsində bəraət hökmünün çıxarılmasını tələb edib.

Məhkəmə heyəti avqustun 7-dək müşavirə otağına yollanıb.

Xatırladaq ki, ötən məhkəmə iclasında prokuror çıxış edib. O, çıxışında M.Əsgərovun 5 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib.

**Dövlət ittihamçısı V.Quliyev söyləyib ki, zərərçəkmiş Vidadi Əzizov Azərbaycan dövlətinə qarşı 1 milyon 200 min manat və M.Əsgərova qarşı isə 193 min manatlıq mülki iddia qaldırıb:** “Zərərçəkmiş dövlətə qarşı iddiasını əsaslandıra bilməyib. Qeyd edib ki, vəzifəli şəxs ona qarşı cinayət törədibsə, dövlət məsuliyyət daşıyır. Vidadi Əzizova qarşı 2012-ci ildə cinayət törədilib və bu müddət ərzində müvafiq qurumlara müraciət etməyib. Yalnız 2015-ci ildə rəsmi müraciət edib. Vətəndaşın şikayəti ilə bağlı ciddi tədbir görülüb. Buna görə də onun dövlətə qarşı mülki iddiası tam rədd edilməli, Mirəziz Əsgərova qarşı iddiası isə baxılmamış saxlanılmalıdır”.

Prokuror əlavə edib ki, M.Əsgərovun üzərinə həbs qoyulmuş əmlakları ilə bağlı tədbirin görülməsi məhkəmənin mülahizəsinə buraxılsın.

Qeyd edək ki, M.Əsgərov zərərçəkmişlərdən hədə-qorxu yolu ilə pul tələb etmək və digər ağır cinayətlərdə ittiham olunur.

O, Cinayət Məcəlləsinin 182.3.1, 182.3.2-ci (mütəşəkkil dəstə tərəfindən, külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu gəlmə), 311.3.1, 311.3.2, 311.3.3, 311.3.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, təkrar, külli miqdarda, hədə-qorxu tətbiq olunmaqla rüşvət alma), 341.2.1 və 341.2.3-cü (bir qrup şəxs tərəfindən, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən sui-istifadə etməmə) maddələri ilə ittiham edilir.

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017




# "Xalqımızı, dövlətimizi bu böyük bəlalardan qurtara bildik"

## Prezident: "Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi daha da aşağı düşəcək"

**Qaxda Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilib. APA-nın xəbərinə görə, dövlət başçısı müşavirəni giriş nitqi ilə açıb.**

Sonra Qax Rayon İcra Hakimiyyətinin başçısı Musa Şəkiliyev, Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, "Şəki İpək" ASC-nin idarə heyətinin sədri Nizami Qəribov, Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütvəli Babayev, Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədri İsmayıl Orucov, Füzuli Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev, Zaqatala rayonu "Dağlar" fermer təsərrüfatının rəhbəri Telman Həsrətov və Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev çıxış ediblər.

**Prezident İlham Əliyev respublika müşavirəsində yekun nitqi söyləyib.**

**"Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi daha da aşağı düşəcək" - deyə prezident bəyan edib:** "Sosial infrastruktur yaradıldı, 3 mindən çox məktəb, 600-dən çox xəstəxana, bölgələrdə 50-yə yaxın Olimpiya İdman Kompleksi tikildi. Eyni zamanda sahibkarlara verilən kreditlər hesabına yüz minlərlə yeni iş yeri yaradılıb. Bütövlükdə 2004-cü ildən bu günə qədər 1 milyon yarım iş yeri açılıb ki, bunun böyük əksəriyyəti daimi iş yeridir. Demək olar ki, hazırda Azərbaycanda işsizlik kimi bir çox ölkələri incidən, boğan sosial amil yoxdur. İşsizlik 5 faiz səviyyəsindədir. Bu gün işləmək istəyən özü üçün iş tapa bilər. Son iki il ərzində xüsusilə kənd təsərrüfatı, sənaye sahələrində çox böyük işlərin görüldüyünü nəzərə alsaq, Azərbaycanda işsizliyin və yoxsulluğun səviyyəsi daha da aşağı düşəcək. Biz xalqımızı, dövlətimizi bu böyük bəlalardan qurtara bildik".

"Nəinki Balakən, Zaqatala və Qaxda, bütün şimal-qərb zonasında çox sürətli inkişaf gedir. Bu zonaya həm dövlət, həm özəl sektor tərəfindən çox böyük investisiyalar qoyulur. Ancaq əlbəttə ki, burada əsas investisiya qoyuluşunun payı dövlətin üzərinə düşür. Son illərdə bu bölgəyə yolların, elektrik stansiyalarının tikintisi, qazlaşdırma, su təchizatı, suvarma məsələləri, sosial obyektlərin inşası ilə bağlı Azərbaycan büdcəsi hesabına çox böyük investisiyalar qoyulub. Məktəblər, xəstəxanalar, sosial obyektlər, idman kompleksləri, turizm obyektləri - bir sözlə, bu gün ölkəmizin şimal-qərb zonası öz sürətli inkişaf dövrünü yaşayır, perspektivləri də çox müsbətdir. Əminəm ki, verilən tapşırıqların yerinə yetirilməsi nəticəsində gələcək illərdə bu müsbət dinamika daha da güclənəcək" - deyə İlham Əliyev bəyan edib.

**O bildirib ki, şimal-qərb zonasında tütünçülük, baramaçılıq, fındıqçılıq bu bölgədə əsrlər boyu inkişaf edib:** "Statistikaya baxdıqda görürük ki, tütünçülüyün, baramaçılığın, fındıqçılığın ən uğurlu və sürətli inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz onun fəaliyyəti nəticəsində 1970-1980-ci illərin əvvəllərində bu sahələrdə böyük inkişaf təmin edilib. O vaxt bu sahələrdə görülən işlər deməyə əsas verir ki, biz bu gün bu sahələri uğurla bərpa edə bilərik. Nəinki bu sahələr, kənd təsərrüfatının pambıqçılıq, üzümçülük və digər sahələri də Heydər Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edib. Biz bu ənənəvi sahələri bu gün bərpa edirik. Bugünkü müşavirənin əsas məqsədi ondan ibarətdir ki, görülmüş işlərə yekun vuraq, çünki son iki il ərzində bu sahələrin inkişafı üçün çox böyük işlər görülüb. Eyni zamanda gələcək fəaliyyətimiz üçün konkret tədbirlər planı hazırlayaq. Dövlət proqramları da qəbul ediləcəkdir ki, bu ənənəvi sahələr Azərbaycanda daha geniş vüsət alsın. Ulu öndər Heydər Əliyev Azərbaycandan Moskvaya gedəndən sonra bu sahələrdə də, bütün digər sahələrdə də Azərbaycan tənəzzüllə qarşılaşdı, iqtisadi, sənaye potensialımız yavaş-yavaş aşağı düşməyə başladı və nəticədə müstəqilliyimizin ərəfəsində ölkə iqtisadiyyatı və sənayesi demək olar ki, çox ağır vəziyyətdə idi. Müstəqilliyimizin ilk illərində isə antimilli qüvvələr - AXC-Müsavat cütlüyü ölkəmizi demək olar ki, məhvə aparırdı. Həm siyasi böhran, hərbi böhran, vətəndaş müharibəsi, torpaqlarımızın işğal altına düşməsi, eyni zamanda onların səriştəsizliyi və savadsızlığı ucbatından ənənəvi kənd təsərrüfatı sahələri artıq tənəzzülə uğradı, sənaye istehsalı da həmçinin. O vaxt inflyasiya min faizlərlə ölçülürdü və ölkənin perspektivləri çox qaranlıq idi. Ulu öndər Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə qayıdandan sonra 1993-cü ildən başlayaraq ölkəmizdə sabitlik təmin edildi, bütün qanunsuz silahlı birləşmələr tərksilah edildi, qayda-qanun yaradıldı, xaosa, anarxiyaya, hərc-mərcliyə son qoyuldu və Azərbaycan sabitlik dövrünə qədəm qoydu.

O vaxt əlbəttə ki, bizim böyük maliyyə imkanlarımız yox idi, Azərbaycan dünyada çox riskli bir ölkə kimi tanınırdı. Ona görə, ilk növbədə, ölkəmizi dünyada tanıtmaq, investisiyaları cəlb etmək məqsədi qarşımızda durmuşdu və biz bu məqsədə nail olduq. "Əsrin kontraktı"nın imzalanması bunun bariz nümunəsidir. O vaxt Azərbaycana böyük investisiya axınını təmin edən bu tarixi layihə ölkəmizin həyatında xüsusi rol oynayıb. Eyni zamanda sənaye istehsalı ilə bağlı çox ciddi addımlar atılıb. Xüsusilə o vaxt kənd təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş qərarlar imkan verdi ki, kənd təsərrüfatı inkişaf etməyə başlasın. Kəndlilər, fermerlər yaxşı bilirlər ki, Heydər Əliyevin göstərişi ilə fermerlər torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilib, torpaq islahatı aparılıb və inkişafa gedən yolda ilk addımlar atılıb. Düzdür, o vaxt bizim maliyyə imkanlarımız çox məhdud idi, ona görə dövlət kənd təsərrüfatına öz maddi dəstəyini lazımi səviyyədə göstərə bilmirdi. Ancaq özəl sahibkarlıq, bazar iqtisadiyyatına keçid nəticəsində kənd təsərrüfatında inkişaf dövrü başlayıb".

**Dövlət başçısı qeyd edib ki, 2004-cü ildə şəxsi təşəbbüsü ilə Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı qəbul edilib və bu proqramın ölkə tarixində çox böyük rolu var:** "İndi təsəvvür edin, əgər o proqram qəbul edilməsəydi, bizim bölgələrimiz hansı problemlərlə üzləşə bilərdi. Məhz bu birinci proqramın, ondan sonra ikinci, üçüncü proqramların qəbulu nəticəsində bölgələr dirçəldi, inkişaf etdi, böyük investisiya təmin edildi. 2004-cü ildən bu günə qədər Azərbaycanın bölgələrinin inkişafı hesab edirəm ki, tarixi nailiyyətdir. Heç vaxt Azərbaycan tarixində belə qısa müddət ərzində bu qədər işlər görülməyib. Bu gün Azərbaycan bölgələrində lazım olan bütün infrastruktur layihələri icra edilib və biz sürətli inkişaf dövrünü yaşayırıq. O vaxt qarşımızda duran əsas vəzifələr infrastruktur məsələlərini həll etmək idi. Yollarımız bərbad idi, elektrik enerjisi ilə özümüzü təmin edə bilmirdik, qaz təchizatı demək olar ki, bölgələrdə ümumiyyətlə yox idi, Bakının yarısı qazsız idi, meliorasiya ilə bağlı olan layihələr, sadəcə olaraq, kağız üzərində qalmışdı. Biz onları həyata keçirdik və infrastruktur məsələlərinin həlli nəticəsində bu gün Azərbaycan nəinki özünü elektrik enerjisi ilə təmin edir, hətta xaricə də böyük miqdarda ixrac edir və böyük vəsait qazanır. Azərbaycanda tikilmiş 20-dən çox yeni elektrik stansiyası bu imkanları bizə yaratdı. Qazlaşdırma Azərbaycanda hazırda 93 faiz səviyyəsindədir və biz indi dünya üçün, Avropa üçün, qonşu ölkələr üçün qaz təchiz edən etibarlı ölkəyə çevrilmişik. 2004-cü ildən bu günədək, yəni, 2017-ci ilə qədər 11 min kilometr yeni yol - həm magistral, həm də kənd yolları salınıb, böyük meliorasiya layihələri icra edilib, Taxtakörpü, Şəmkirçay su anbarları, digər dəryaçalar yaradılıb, kanallar çəkilib və bu proses bu gün də davam etdirilir. Qarşıda duran əsas məsələlərdən biri də fermerləri dayanıqlı su ilə təmin etməkdir.



### "Dünya üçün qaz təchiz edən etibarlı ölkəyə çevrilmişik"

2004-cü ildən başlayaraq infrastruktur layihələrinin icrası ilə bağlı qarşıda duran əsas vəzifələrdən biri ərzaq təhlükəsizliyi idi. Biz əsas diqqətimizi bu sahəyə yönəltdik. Çünki bu, prioritet idi. Yaşlı nəslin nümayəndələri yaxşı bilirlər ki, sovet vaxtında Azərbaycan özünü ətlə, yağla, südlə, toyuq əti ilə təmin edə bilmirdi, bu məhsullar başqa respublikalardan gəlirdi. Biz isə öz növbəmizdə pambıq, üzüm, meyvə, tərəvəz, tütün, fındıq istehsal edib başqa respublikalara göndərirdik. Ancaq müstəqillik dövründə ərzaq təhlükəsizliyi məsələləri ön plana çıxdı. Ona görə biz əsas diqqəti bu sahəyə yönəltdik. Bunun nəticəsində bu gün taxılçılıqda böyük inkişaf var. Düzdür, bu, hələ ki bizi tam qane edə bilməz, biz özümüzü hələ tam təmin etmirik, ancaq inkişaf var. Ət istehsalı Azərbaycanın tələbatını demək olar ki, ödəyir. Növbəti illərdə görüləcək tədbirlər nəticəsində biz hətta böyük ixrac potensialına da malik olacağıq. Biz özümüzü toyuq əti ilə 100 faiz, süd və süd məmulatları ilə təqribən 80 faiz səviyyəsində təmin edirik. Azərbaycandan böyük həcmdə meyvə-tərəvəz ixrac edilir. Yəni ərzaq təhlükəsizliyi məsələləri prioritetdir. Deyə bilərəm ki, bu sahədə əldə edilmiş nailiyyətlər çox sevindiricidir. Növbəti illərdə daha da böyük nəticələr olacaq.

O ki qaldı texniki bitkilərə, bu sahəyə o qədər də diqqət göstərilməmişdir. Bunun da səbəbləri onunla bağlı idi ki, investisiyalar, ilk növbədə, infrastruktura, ərzaq təhlükəsizliyi məsələlərinə qoyulmalı idi. Bizim digər böyük sosial proqramlarımız var. Xüsusilə məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılmasına milyardlarla vəsait qoyuldu. Ordu quruculuğuna milyardlarla vəsait qoyuldu. Ona görə texniki bitkilərin inkişafı bir qədər diqqətdən kənarda qalıb. Hesab edilirdi ki, bazar iqtisadiyyatı, özəl sektor bu sahələri də inkişaf etdirəcək. Ancaq gördük ki, dövlətin dəstəyi olmadan bu sahələr inkişaf edə bilmir. Son illərdə bu sahələrdə çox böyük tənəzzül müşahidə olunur. Demək olar ki, biz bu sahələri itirirdik. Pambıqçılıq demək olar ki, məhv olurdu. O cümlədən tütünçülüyə maraq göstərilmirdi, baramaçılıq isə ümumiyyətlə, gündəlikdən çıxarılmışdı. Ona görə bu sahələrə göstərilən diqqət nəticəsində cəmi iki il ərzində dönüş yarandı. Pambıq istehsalı artdı. 2015-ci ildə cəmi 17 min hektarda pambıq əkilirdisə, bu il əkin sahələri 136 min hektara çatdı, cəmi iki il ərzində təxminən 10 dəfə artdı. İstehsal da buna uyğun şəkildə artır və artacaq. Biz indi böyük ixrac imkanlarımızla xarici bazarlara çıxırıq. Nəinki xam pambıq, mahlıc, eyni zamanda, Mingəçevirdə yaranmaqda olan böyük yüngül sənaye kompleksinin fəaliyyətə başlaması nəticəsində biz hazır məhsul ixrac edəcəyik. Digər sahələrdə, misal üçün, fındıqçılıqda. Baxmayaraq ki, fındıqçılıq müstəqillik dövründə artıb. Tütünçülük, baramaçılıqdan fərqli olaraq fermerlər bu sahəyə maraq göstərmişlər. Çox da olmasa, artım var idi. Ancaq biz bu artımı sürətləndirdik. İki il ərzində 18 min hektarda yeni fındıq bağları salınıb ki, bir neçə ildən sonra onlar bar verəcək".

**Prezident vurğulayıb ki, tütünçülüklə bağlı atılmış ilk addımlar öz nəticəsini verir:** "Bu müşavirədən sonra çox ciddi proqram qəbul ediləcək. Azərbaycanda baramaçılıq çox geniş vüsət alıb. Hesab edirəm ki, fermerlər, kəndlilər tərəfindən ən çox maraq göstərilən sahə də baramaçılıqdır. Çünki dövlət hər şeyi öz üzərinə götürüb, bütün lazımi materialları, tingləri verir, bütün sahələr üzrə subsidiyalar verir. Kümçülər 30-40 gün ərzində yaxşı gəlir əldə edirlər. Ona görə, bu ənənəvi sahələrin inkişafı ilə bağlı əlavə tədbirlər görüləcək. Biz bu gün bu barədə danışacağıq. O ki qaldı, bizim ümumi iqtisadi inkişaf perspektivlərimizə, mən bu perspektivləri yüksək qiymətləndirirəm. Azərbaycan iqtisadiyyatı inkişaf edir. Bu ilin altı ayının nəticələri bunu deməyə imkan verir. Qeyri-neft iqtisadiyyatımız, qeyri-neft sənayemiz artdı. İxrac 36 faiz, qeyri-neft ixracı 27 faiz artıb. Kənd təsərrüfatı ixracı 40 faizdən çox artıb. Biz 6 ayda valyuta ehtiyatlarını nəinki qoruya bilmişik, görülmüş tədbirlər, düşünülmüş iqtisadi siyasət nəticəsində 3 milyard dollar əlavə valyuta gəlib. Azərbaycana birinci altı ayda 5 milyard investisiya qoyulub. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumu ölkə iqtisadiyyatını rəqabətqabiliyyətliliyinə görə 37-ci yerə layiq görüb. Bu, MDB məkanında birinci göstəricidir. Bu, sadəcə olaraq, görülmüş işlərin təzahürüdür. Makroiqtisadi sabitlik təmin edilib. Manatın məzənnəsi sabitdir. Dövlət xətti ilə ölkə iqtisadiyyatına sərmayə qoyulur. Özəl sektor da buna qoşulub. Qırxa yaxın aqropark yaradılır. Yaxın 1-2 il ərzində bu aqroparklarda istehsal olunacaq məhsul böyük bazarlara ixrac ediləcək, daxili ərzaq təhlükəsizliyi təmin ediləcək. Bir sözlə, idxaldan asılılığı azaltmaq, daxili tələbatı daxili istehsal hesabına təmin etmək və ixrac imkanlarımızı genişləndirmək məsələləri Azərbaycanda uğurla təmin edilir. Əminəm ki, bugünkü müşavirənin nəticəsində bizim üçün ənənəvi olan sahələr - baramaçılıq, tütünçülük, fındıqçılıq da uğurla inkişaf edəcək, həm fermerlər, kəndlilər daha da böyük fayda görəcək, eyni zamanda, dövlətimiz daha da güclənəcək".

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017



# Harın oğullar seriyasından 47-ci yazı

**Samir SARI**

**Təvazökarlıqdan Ştutqart qədər uzaq olsa da, deməliyəm ki, illər öncə sosial-siyasi mövzularda yazdığım yazılar, gün gəlir, gündəmlə elə səsləşir ki, özüm də mat qalıram. Vaxtaşırı elə hadisələr olur ki, dostlara deyirəm, a kişilər, mən bunu 5 il əvvəl yazmışam. Müasir dövrdə də arxiv adamın əlinin altındadır axı, iki dəqiqəyə yazının elektron variantını açıb göstərirəm, görürlər ki, düz deyirəm.**

Dünən gündəmdə olan hadisə - yüksək mənsəbli şəxsin nəvəsinin bahalı maşınının ağır qəzaya uğraması olayı barədə xəbəri oxuyanda yadıma düşdü ki, harın sürücülər, ərköyün züryətlər mövzusunda da bir hekayəm var. O hekayəni 2012-ci ildə yazmışdım və kulis.az-ın unudulmaz redaktoru Qan Turalıya göndərmişdim, o da saytın 7 iyul 2012-ci il buraxılışında, saat 11.50-də dərc etmişdi.

Olmuş əhvalat əsasında yazdığım hekayənin qısa məzmunu belədir: Yüksək vəzifəli şəxsin övladı bahalı maşında qəza törədir, bir kasıb adamın köhnə və ucuz maşınını vurub əzir. Hər iki maşın metalloloma dönür, gənc və harın sürücü ilə yaşlı və kasıb sürücü düşüb dalaşırlar. İş polisə düşür, oğullar və atalar işə qarışır. Axırda gənc sürücünün vəzifəli atası ərköyün oğluna deyir ki, evə piyada getməsin, getsin avtosalona, əzilmiş avtomobilin nömrəsini həmin markadan olan yeni avtomobilin üstünə bağlasın, evə heç nə olmamış kimi qayıtsın.

Elə də olur. Məqsəd odur ki, qonşular, dost-tanış uşağın bir ay əvvəl alınmış maşınla qəzaya düşdüyünü bilməsinlər. Cəhənnəmə olsun 30-40 min dollar...

Bəli, hörmətli soydaşlar, həmvətənlər və şəhərimizin qonaqları, ölkəmizdə bu cür düşünən və hərəkət edən yüzlərlə, yox, "yüzlərlə" az oldu, minlərlə adam var və onların hamısı ard-arda övladlarına bahalı avtomobillər alır, onların harınlamasına, qudurmasına birbaşa şərait yaradırlar.

Biz onlar haqqında nə vaxt xəbər tuturuq? Bu cür qalmaqallı hadisələr törədəndə, adam vurub öldürəndə, kimisə şapalaqlayanda, özləri qəzaya uğrayanda.

Bu da o vaxt olur ki, hadisə yerinə jurnalistlər polislərlə eyni vaxtda çatır və ikincilər isti-isti birincilərə məlumat verirlər, xəbər mediaya çıxır və dildən-dilə, saytdan-sayta keçərək yayılır, heç cür ört-basdır etmək mümkün olmur.

Əmin olun ki, medianın xəbər tutmadığı və yaymadığı N qədər bu cür hadisələr də baş verib və verməkdədir, amma onlardan ictimaiyyətin xəbəri yoxdur.

O, "yol keçən piyadaları vurub qaçan naməlum avtomobillər" var ha, heç də naməlum deyillər, sadəcə, hadisə yerindən vaxtında uzaqlaşıblar və nəyə görəsə ətrafdakı müşahidə kameraları onları çəkə bilməyib.

Təkcə Bakıda bir milyon iki yüz otuz dörd min beş yüz altmış yeddi müşahidə kamerası var, onların obyektivindən işıqforun qırmızı işığının üstünə zıl atan quş da yayına bilməz, amma nə işdirsə, bəzən "naməlum avtomobillər" yayına bilirlər.

Bütün bunların hamısı harın oğullar, harın nəvələr böyüdən vəzifəli, pullu ataların üzündəndir.

İndi bəziləri zarafatla, bəziləri də ciddi-ciddi deyirlər, yazırlar ki, adamın atası (babası) vəzifəlidir deyə, onun övladı "Galendevagen" əvəzinə "Zaporojye" sürməlidirmi?

Məntiq var. Ona qalsa dədəsi-babası ulaq minib "toş-toş" edə-edə əkin-biçinə gedənlərin nəvələri "Ferrari" minirlər, amma sadəliklərindən qalmırlar, bunlar da elə edə bilərlər. Qoy "Maybax" sürsünlər, "Qolfstrim" sürsünlər, belə lap "Boinq" alıb özləri də pilotluq eləsinlər, kim nə deyir ki? Amma bir az yavaş sürsünlər, asta olsunlar, camaatın belindən keçməsinlər.

Avtomobilin bahalı və qaçağandır deyə sən onu şəhərin içində 250 ilə sürməli deyilsən.

Hətta tutaq ki, maşın sürmək xüsusunda Şumaxerdən, Alonsodan daha ustasan, ötəsən, üstünsən, amma bu o demək deyil ki, sən sürət həddinin maksimum 80-90 olduğu yollarda 200-lə şütüyüb kiminləsə ötüşməlisən.

Çünki o yolda başqaları da var və o mərdimazar adamlar sizin yolunuza çıxır, qanqaraçılıq olur, özləri ölüb-gedirlər, amma sizə o maşını peşkəş edən atanızın, babanızın üzünə söz gəlir. Dəyərmi?

Bir də sizin üzünüzdən artıq o məşhur prospektə çıxmayanlar var, alternativ yollardan istifadə edirlər, bilirlər ki, günün istənilən saatında sizin kastadan olan bir qudurğan gədə o prospektə çıxacaq və şütüyüb gedəcək. Belə davam etsəniz, inşallah, o yolda özünüzdən başqa maşın sürən olmayacaq. Bax, onda istədiyiniz kimi ötüşərsiniz.

---

# "Surət Hüseynov ən böyük xaindir"

## İsgəndər Həmidov: "2018-ci ildə prezident seçkiləridir, düşünürəm ki, Surəti də müəyyən qüvvələr ortalığa yenidən salıblar; proses Rusiyadan idarə olunur"

**Türkiyədə biznes həyatı ilə məşğul olan sabiq baş nazir Surət Hüseynovun son günlərdə peyda olması və mətbuata verdiyi müsahibə ciddi müzakirələrə səbəb olub. Uzun illərdir yoxa çıxan və jurnalistlərin israrına rəğmən daim susan S.Hüseynovun qəfildən "dirilməsini" kimsə təsadüfi hesab etmir. O, müsahibəsində daha çox AXC-Müsavat hökumətinin ünvanına ittihamlar səsləndirsə də, ümumilikdə başlanan prosesin mahiyyətinin fərqli olduğu şübhəsizdir.**

Həmçinin Surət Hüseynovun ardından Rusiyanın adamı kimi tanınan eks-prezident Ayaz Mütəllibovun da onu dəstəkləyən açıqlamalar verməsi şübhələri daha da artırıb və müəyyən qədər aydın təsəvvürlər yaratmağa başlayıb. Söhbət ondan gedir ki, regiondakı indiki mürəkkəb şəraitdə və xüsusilə 2018-ci ilin prezident seçkilərinə təxminən 1 il qalmış Rusiyanın əlaltıları kimi xarakterizə olunan şəxslərin fəallaşması müəyyən mətləblərdən xəbər verir. Maraqlıdır, Rusiya bu dəfə "5-ci kolon"unu bu tip adamlar üzərindən körükləyir? Və bir faktı da qeyd edək ki, 2013-cü ilin prezident seçkiləri ərəfəsində Rusiyanın projesi olan Milli Şura ərsəyə gəlmişdi. Diqqətçəkən məqamlardan biri də odur ki, Surət Hüseynovun açıqlamalarına Milli Şura reaksiya vermir, baxmayaraq ki, bu qurumun rəhbərləri vaxtilə AXC hökumətində olmuş adamlardır.

Cəhdlərimizə baxmayaraq, MŞ üzvlərini bu məsələ ilə bağlı biz də heç cür danışdıra bilmədik...

**AXC-Müsavat hökumətinin daxili işlər naziri olmuş İsgəndər Həmidov isə "Yeni Müsavat"a sabiq baş nazirin dedikləri ilə bağlı sərt danışdı:** "Surət Hüseynovun son zamanlar aktivləşməsi təsadüfi deyil. O pulu ilə heç bir torpaq almayıb, bir santimetr belə torpaq azad etməyib. Surət Hüseynov yaxşı xatırlayar, Ağdərə-Kəlbəcər yolu açılanda o, tankları və qoşunları geri çəkmişdi. Guya tankları Gəncəyə təmirə aparırdı. Rəhmətlik qardaşım Sərdar Həmidov orada Surət və Rəhim Qazıyevin əsgərlərini qovdu. Surət Hüseynovun heç bir əməyi olmayıb. O, hansı torpaqları azad edib, biz hansı torpaqları ermənilərə vermişik, bilmirik. Ona xatırlatmaq lazımdır ki, tarixə baxsın, torpaqların hansı dövrdə getdiyini görsün. O zaman görəcək ki, baş nazir kimi o torpaqların itirilməsində hansı məsuliyyəti var. Qarət adı ilə insanlarda xof yaradıb, o rayonları boşaltdılar, sonra da həmin rayonları qarət etdilər. İnsanlar elə yalan danışırlar ki, adam məəttəl qalır. Şərbakın diviziyası çıxarılanda Surətə o pulu İsa Qəmbər, Əli Kərimli və digərlərinin əli ilə dövlət, yəni onun bəyənmədiyi hakimiyyət verdi. Surət Hüseynov bəyənmədiyi hökumətin dövründə ən yüksək postları tutdu. O deyir ki, bizlər "vətən xaini" olmuşuq, ən böyük xain onun özüdür. Onun atası rəhmətə gedib, Allah rəhmət eləsin. Mənim ölü ilə işim yoxdur, diri ilə işim var. İndi o, Türkiyədə biznes qurub, iş adamıdır. Amma unutmasın ki, AXC-Müsavat hökumətini quranlar bu gün acından ölürlər. Güclə özlərini dolandırırlar. Nə yaxşı ki, yaxşı insanlar var, hərdən yardım edirlər.



**"Ağdərə-Kəlbəcər yolu açılanda o, tankları və qoşunları geri çəkdi, guya tankları Gəncəyə təmirə aparırdı"**

İndi də hava istidir, qızmar günəşdən yenə də başında tərpənmə olub. Ona görə danışığını bilmir. Ümumiyyətlə, ölü-dirisinə qiymət verən şəxs təhqirlə danışmaz. Onun ata-anası rəhmətə gedib, onlara rəhmət diləyirəm. Amma gərək o da kiminsə ölüsünü təhqir etməsin, gün gələr cavabı qayıdar. Surət təhqirlə danışmaqla özünü qəhrəman kimi qələmə vermək istəyir ki, yəni onları mən təhqir də edə bilərəm. Qorxusundan dabanına tüpürüb Türkiyəyə gedən və orada yaşayan şəxs indi bizləri tənqid, təhdid edir. Yaxşı baxsın, o zaman ittiham etdiyi hökumətin vaxtında heç bir torpağın getmədiyini görəcək. Dövlət çevrilişindən sonra onun sayəsində beş rayon dalbadal getdi. Ruslarla ələqəyə girib min oyundan çıxdı. Ayaz Mütəllibovun da mətbuata müsahibəsində onu dəstəklədiyi təsadüfi deyil. Bu, zərrə qədər məni təəccübləndirmədi. Azərbaycanda hər kəsə məlumdur ki, Ayaz Mütəllibov Rusiyanın projesi idi. Bunların hamısı Rusiyadan gələn komandadır. Ayaz Mütəllibov heç olmasa Xocalı hadisələrini yada salıb xəcalət çəksin. Bu yaşda saç-saqqalı ağarmış adam bu qədər yalanı necə danışır, bilmirəm. Rusiyanın vasitəsilə bu tipli şəxslər ortaya atılıb. Çünki bizlərin gələnilki seçkilərdə namizədimizin olacağını və onu dəstəkləyəcəyimizi yaxşı bilirlər. Ona görə də bu cür kampaniyaya keçiblər. Rəhmətlik Əbülfəz Elçibəyin vaxtında Ayaz Mütəllibovun ailəsinə hər cür qayğı göstərilib. Amma bunlar bizi hədəfə alırlar. Baş nazir, korpus komandiri olmuş şəxs kimlərisə ittiham edir ki, vətən xainidirlər. Hərbiçi kimi torpaqları sən verməsən. Ağdam məcburi köçkünlərini danışdırın, görəcəksiniz ki, hər biri deyəcək ki, Surət Hüseynov və onun gədələri torpaqları verdilər. O vaxt Tərtərdə ona görə uğur qazandıq ki, qardaşım Sərdar Surət Hüseynovun dəstəsini oradan qovub çıxardı. O şəxslərə deyirəm ki, azacıq xəcalət çəkib utanın. Bu millətin qarşısındakı günahlarını etiraf etmək əvəzinə bunu kiminsə üzərinə yıxırlar. Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzulunun işğalında Surət Hüseynov baş nazir idi. Alan idisə, o işğalların qarşısını alardı də. Onu dövlət heç vaxt "vətən xaini" elan etməyib. Düzdür, AXC-nin İcraiyyə Komitəsi onu "vətən xaini" elan edib. Sonradan da ona "vətən xaini" maddəsini bizdən sonrakı hakimiyyətin dövründə məhkəmə verdi".

Seçkiləridir, düşünürəm ki, Surəti də müəyyən qüvvələr ortalığa yenidən salıblar".

**İ.Həmidov sabiq baş nazirin təhqirlərinə də cavab verdi:** "Onu türmədə bir az "müalicə etdilər". O zaman onun başı bir az getmişdi.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017

# "Gözümün qabağında 17 nəfər batırdı, onlardan 9-u boğuldu..."

## Mehman Əliyev: "Köhnə kadrlar dəyişməli, yeni, işlək bir qrup formalaşmalıdır ki, islahatlar aparılsın"

**"Baxış bucağı"**

**Xeyli müddətdir mətbuatdan uzaq düşməsinin səbəbini işlərinin çoxluğu ilə izah edir. Deyir ki, rəhbərlik etdiyi komanda kiçik olduğundan 3-4 nəfər də məzuniyyətə gedəndə özünün daha çox işləməsi lazım gəlir. "Bütün bunlara görə də şəxsi işlərim kənarda qalır. Sonuncu dəfə analitik məqaləni ötən ayın sonlarında yazmışam. Bəzi hadisələr baş verdi, yaza bilmədim. Başqa tədqiqatlarım da var, onlar yarımçıq qalıb".**

Həmsöhbətimiz "Turan" informasiya agentliyinin direktoru Mehman Əliyevdir. Ancaq işlərinin çox olmasına baxmayaraq, dənizə hər gün vaxt ayırır, necə deyərlər, görüş zamanını və yerini dəyişmir. Elə biz də söhbətə dənizdən başladıq:

***- Mehman bəy, dənizi çox sevdiyinizi bilirik. Sizinçün dəniz nə deməkdir?***

- Hər gün səhər 5-də yuxudan dururam, 6-ya qalmış artıq dənizdə oluram. Bilirsən, dəniz belə bir şeydir ki, adamı sakitləşdirir, təmizləyir. Mən hər gün üzürəm, idman edirəm, əzələlərim möhkəmlənir. Uzaq məsafəyə üzəndə həm də istirahət edirəm, yaxud fikirlərim başqa yerə gedir. Bu gün səhər üzürdüm, xəyalən çox geriyə qayıtmışdım. Hardasa 80-ci illərin əvvəllərinə, xilasedici işlədiyim zamanlara, universitet illərinə. Dənizlə təkbətək olanda şəxsən mənə çox müsbət təsir edir.

***- Dərinə üzə-üzə xəyallara dalmaq təhlükəli deyilmi? Narahat olmursunuz ki, bu fikirlər sizi dənizin dərinliklərinə aparar?***

- Elə dərinliklərə gedirəm. Mənə həmişə evdə deyirlər ki, uzağa getmə. Bilirlər ki, uzağa üzürəm.

***- Nə qədər dərinə gedirsiniz?***

- Hardasa 200 metr içərilərə qədər üzürəm, sonra da ora-bura üzməyə başlayıram.

***- Amma risk edirsiniz...***

- Yox, mən dənizi tanıyıram. Bilirəm hara, nə qədər getmək olar. Axından, dalğadan asılı olan məsələlər var. Yəni mən sakit havada deyirəm ki, normal üzmək olur.

***- Dənizdə batanlarımızın sayı getdikcə artır. Peşəkar üzgüçüsünüz, bunun səbəbi, sizcə, nədir?***

- Səbəbi profilaktikadır. Yəni işi düzgün təşkil etmək lazımdır ki, insan batmasın. Bu yaxınlarda mən Buzovnada dənizə getmişdim. Birdən külək güclənməyə başladı. Mən o trayektoriyanı bilirəm, gördüm ki, su axını sola, dambaya tərəf aparmağa başladı. Baxdım ki, xilasedicilər bir hərəkət eləmir. Halbuki qayıqla suya çıxmalı, insanları dambaya yaxın yerlərdən kənarlaşdırmalıdırlar. Çünki dalğa adamları ora aparsa, qayalara vura bilər. Amma başqa vaxtda, sakit havada onları gördüm. Çünki artıq hadisə baş vermişdi. Ona görə də təhlükəni qabaqlamaq lazımdır.

***- Amma sanki insanlarımız da təhlükəyə, ölümə can atırlar, nə küləyi, nə dərinliyi nəzərə almırlar...***

- Bilirsiniz, bu, nə ilə bağlıdır? Mən uşaqlıqdan dənizdə böyümüşəm. Ona görə də Xəzər dənizinin nə olduğunu yaxşı bilirəm. Dənizlə zarafat eləmək olmaz. Dostluq eləmək olar, amma unutmaq olmaz ki, o, həmişə dostunu özünə tərəf çəkmək istəyir. Dənizin bu xüsusiyyəti var. Hətta biz uşaqlıqda deyirdik ki, əgər dəniz sakitləşibsə, deməli, doyub. Yəni hava düzəlirsə, demək, artıq bir neçə nəfər batıb. Yaxud qurbanlıq gedibsə, hava düzəlir.

### "Açığını deyim ki, müxalifətin hansısa ciddi uğurlarının olacağını gözləmirəm"



***- Ötən həftənin küləkli günlərinin birində 6 nəfər boğuldu. Siz belə hadisələrin şahidi olmusunuzmu?***

- 70-ci illərdə olub. Gözümün qabağında 17 nəfər batırdı, onlardan 9-u boğuldu, amma qalanlarını çıxara bildilər. Adamlar dənizin təhlükəsini bilmirlər. Onda da çox küləkli hava idi.

***- Bəs son vaxtlar necə, siz özünüz kimisə xilas edibsinizmi?***

- Yox. İctimai çimərliklərdə çimmək mənimçün bir az gərginlik yaradır. Kimsə hardasa qışqırırsa, mən dərhal baxıram, mexaniki olaraq sanki nəyisə gözləyirəm. Elə bil ki, özümü xilasedici kimi hiss edirəm. Ona görə də çimərliklərdə çimmirəm, kənar yerlərə gedirəm.

***- Heç sizə xəbərdarlıq olubmu ki, burada üzmək olmaz, qadağandır?***

- Hər yerdə kiminsə durması mümkün deyil. Uzaqbaşı lövhə qoymaq olar ki, bu ərazidə çimmək qadağandır. Sovet dövründə var idi, amma indi belə lövhələri görmürəm. Mən bu yaxınlarda bir dostumla çimərliyə getmişdim. Girdim suya, amma uzağa getmədim, bildim ki, xilasedicilər gələcək. Yəni gərək onlar üçün problem yaratmayasan. Ona görə də suya girən kimi çimərliyin trayektoriyasından çıxıb sola getdim, çimərlikdən kənarlaşdım. Düzdür, gəldilər ki, bəs, olmaz. Ancaq orada başqa hadisə baş verdi. Orada kimlərsə dənizin sahilini zəbt edib, hasarlayıb, özü üçün villalar tikiblər. Qayıdıb mənə dedilər ki, buranın sahibinin xoşuna gəlmir ki, üzgüçülər burada dənizə girsinlər. Mən də qayıtdım dedim ki, başa düşmədim, bu dəniz kiminsə mülkiyyətidir məgər? Birbaşa beləcə dedim ki, onu kim deyirsə, qələt eləyir. İkincisi də dedim ki, sizin iş yeriniz çimərlikdir, qayıdın, gedin işinizlə məşğul olun. Bundan sonra özümçün üzüb getdim. Hərdən fikir verirəm, "sahilin yiyələri" kənardan durub baxırlar, amma onlara göstərirəm ki, mən nə qədər istəsəm, o qədər də üzəcəyəm.

***- Dəniz sahilinin hasarlanması da az qala ümummilli problemə çevrilib, hər kəs danışır, nəticə yoxdur. Bu özbaşınalıqlara nə zaman son qoyula bilər?***

- Bu sahədə vəziyyət o zaman dəyişəcək ki, ümumiyyətlə, ölkədə dəyərlər, baxışlar dəyişəcək. Yəni insan başa düşməlidir ki, o belə şeylər etməməlidir, zəbt eləməməlidir. Bir də ki, qanunlar da işləməlidir. O gün prezidentin rəhbərliyi ilə iqtisadi yekunlara həsr olunmuş iclasda Kərəm Həsənov çıxış edirdi. Deyirdi, dənizin sahilinə nəzarət edirik ki, 20-50 metrlik zolaq zəbt olunmasın. Amma o, şəxsən zəbt eləyib. Onun özünün villasının hasarı dənizə girir. Ona görə də bunlar olmamalıdır, qanun işləməlidir. İnsanlar özləri də dərk eləməlidir ki, bunu etmək olmaz.

### "Mən dənizi tanıyıram, bilirəm hara, nə qədər getmək olar"

***- Mehman bəy, dəniz mövzusundan siyasi mövzulara keçək. Ən kritik məqamlarda sizin nikbin açıqlamalarınız olardı. Qərb institutları ilə Azərbaycan hakimiyyəti arasında anlaşmanın əldə olunacağını da demişdiniz. Artıq Avropa İttifaqı Azərbaycanın Lənkəran rayonunun inkişafı üçün 13,5 milyon avro vəsait ayırdı. Deyəsən, proqnozlarınız doğrulur, sədlər götürülür...***

- 2016-cı ildə öhdəliklər götürülüb, sövdələşmə olub. Mən də gözləyirəm ki, bu ilin sonuna qədər komandada xeyli dəyişikliklər olmalıdır. Köhnə kadrlar dəyişməli, yeni, işlək bir qrup formalaşmalıdır ki, islahatlar aparılsın. Ümumilikdə bugünkü vəziyyətə baxsaq, vəziyyət qənaətbəxş deyil. O vaxtlar biz tərəflərdə aya 2-3 min verib bağ evlərində qalırdılar. İndi pul yoxdur, evlər boşdur, kim gəlib qalacaq? Bu da göstəricidir ki, vəziyyət yaxşı deyil. Hakimiyyətin davranışları sanki özünü itirmiş vəziyyət yaradır. Başa düşürlər ki, irəli getmək lazımdır. Amma islahatın özündən də qorxurlar ki, sonra problemlər yaradar. Yəni belə bir çarpışma vəziyyətidir. Bu çarpışma vəziyyəti insanların gündəlik rifahına, yaşayışına çox pis təsir edir. Bunlar bəlkə bunu hiss etmirlər. Amma cəmiyyətə çox ciddi fəsadlar verə bilər. Çünki heç bir hərəkət yoxdur, heç bir real islahat prosesi getmir, kiçik və orta sahibkarlığın inkişafı üçün addımlar atılmır. Vergilərdən gəlirlər, cərimələr tətbiq edirlər, camaatı soyurlar. Hətta bizi də 5 min cərimələdilər.

***- "Turan" agentliyini?***

- Bəli. Biz də götürüb şikayət verdik, baxmadılar. Sonra götürüb nazirə məktub yazdıq. Tapşırıq gəldi ki, yoxlanılsın. Təzədən yoxladılar, dedilər "səhv etmişik". Sən mənim pulumu niyə hesabımda həbs etmisən? Biz qaytardıq, bəs başqaları neyləsin?

***- Bəs ABŞ-Rusiya qarşıdurması hansı həddə qədər inkişaf edə bilər?***

- Açığı, mən bu qarşıdurmanı görmürəm.

***- Sanksiyalar?***

- O sanksiyalar Rusiya üçün müsbət xarakter daşıyır. Necə ki, neftin qiyməti düşəndə neft ölkələri qeyri-neft sektorunu inkişaf etdirmək məcburiyyəti qarşısında qaldı. Bu, müsbət haldır. Sanksiya qərarları da Rusiyanı toparlanmağa vadar edir ki, ölkə öz resurslarından istifadə etsin. İran deyir yaxşı ki, o vaxt bizə qarşı bu münasibət oldu, ayıldıq, işləməyə, yaratmağa başladıq.

***- Rusiyanın ehtiyat fondu tükənibsə, onda necə?***

- Ehtiyat fondu Rusiyanın öz problemidir. Necə olur ki, böhran dövründə Rusiyada milyarderlərin sayı çoxalır, digər tərəfdən isə onların kapitallarının sayı artır? Bu, nə deməkdir? Deməli, Rusiyada oğurluq, quldurluq davam edir, ölkə talan olunur. Rusiya ilk növbədə öz-özünü müalicə etməlidir. Ukrayna neçə ildir çarpışır, o gün statistikaya baxdım, 2015-ci ildən bu yana ölkədə korrupsiya 35 dəfə artıb. Buna Amerika günahkardır, ya Rusiya?

***- Rusiya və NATO-nun Cənubi Qafqazda üz-üzə dayanmasını təhlükə sayırsınızmı?***

- Mən bu təhlükəni görmürəm. Hamburqdakı Putin-Tramp görüşünü götürsək, 2 saat yarım söhbətdə demək olar bütün məsələlər həll olundu. Ondan sonra ziyafət vaxtı da üz-üzə söhbət edib yekunlaşdırdılar.

***- Yəni artistlik edirlər?***

- Artistlik deyəndə ki, burada hərə öz maraqlarını güdür. Mənimçün əsas məsələ odur ki, Rusiyanın problemi böhrandır. ABŞ hər şeyi edir ki, Rusiyada qeyri-stabillik yaranmasın. Ona görə də Rusiyanın Suriya, Türkiyə, ümumiyyətlə, regionda gücünün şişirdilməsi, daha çox daxili piar, daxili stabillik üçün istifadə olunur. Yəni "bəli, vəziyyət belədir, ancaq biz vuruşuruq, Amerikada seçkilərə qarışırıq, İngiltərədə, Almaniyada belə edirik". Bu, daha çox ciddi iqtisadi böhran fonunda Rusiya ictimaiyyətini Putinin ətrafında birləşdirmək, Putinə rəğbəti aşılamaq üçündür. Fikir verin, Putinin reytinqi birdən-birə nə qədər yüksəlib. Çünki güclü liderə ehtiyac var. Ruslar bu gün hesab edirlər ki, onlar yenə də dünyaya meydan oxuyurlar.

***- Azərbaycanın 2018-ci ili ilə bağlı gözləntiləriniz nədən ibarətdir?***

- 2016-cı ildə bir sıra məsələlər razılaşdırılıb, mən bunu yazmışam. Ondan sonra ABŞ-ın, Qərbin Azərbaycana təzyiqləri xeyli azaldı. Bu gün münasibətlər kifayət qədər diplomatikdir. Necə ki, deyirsiniz Lənkərana vəsait ayrılıb. Belə layihələr həyata keçirilir.

***- Bəs Rusiya Azərbaycandakı prosesləri tətikləyə bilərmi?***

- Yox. 2003-cü ildən bəri Rusiya və Amerika Azərbaycanda hakimiyyətin transformasiyasını bəyənir və qəbul edirlər. Odur ki, burada müştərək işləyəcəklər. Yəni burada hansısa qeyri-stabillik yaratmaq heç bir tərəfin marağında deyil.

***- Bəs Surət Hüseynovun peyda olması nə məsələdir?***

- Boş-boşunadır. Bu gün hakimiyyətdə əsas məqsəd köhnə komandanın sıradan çıxarılmasıdır. Çünki köhnə komanda köhnə problemdir. Yeni komanda yeni vəzifələr, yeni üfüqlər, öhdəliklərdir. 2018-ci illə bağlı ciddi problem görmürəm. Çünki böyük dövlətlər bir araya gəlirsə, konsensus olursa, onda problem olmur.

***- Bu arada müxalifət də gizli toplantı keçirib. Seçkilərdə müxalifətin şansını necə dəyərləndirmək olar?***

- Açığını deyim ki, müxalifətin hansısa bir ciddi uğurlarının olacağını gözləmirəm. Çünki müxalifət parçalanmış vəziyyətdədir. Ancaq fors-major vəziyyət olsa, onda birləşib nəsə edə bilərlər. Necə ki, 2013-cü ildə Milli Şuranın yaradılması prosesində çox qısamüddətli həmrəyliyi gördük, sonra parçalandılar, məsələ gündəmdən çıxdı. Seçkiyə qədər də yol xəritələrinin işə salınması baş verməli, müəyyən ciddi, populyar addımlar atılmalıdır ki, cəmiyyətin rəğbətini əvvəlcədən qazanmaq mümkün olsun. Cəmiyyət də islahatları gözləyir...

❑ **Elşad PAŞASOY**
**FOTO: "YM"**



# Yolsuzların həyatı

Zamin HACI
zaminhaci@gmail.com

**Hökumət rayonları elə tərifləyir, adam az qalır köçüb getsin kənddə yaşasın. Ay yeni iş yerləri belə yarandı, uy region elə inkişaf elədi, ah filan rayonda bayraq dirəyi uzandı, of beşməkan kəndə müasir işıq dirəkləri olan, ortasında müasir skameykalar qoyulmuş müasir yol çəkildi və sairə...**

Region xəbərlərimiz tam bir cənnət reportajlarını xatırladır. Bakı isə gözümüzün qabağında olduğu üçün, bir qədər də AXC-Müsavat-Feto-NATO dördlüyünün dağıdıcı hakimiyyət qərinəsində uçuruma yuvarlandığı üçün yaşamağa uyğun yer deyildir.

Misal üçün, dünən mənim yaşadığım Binəqədi rayonunda qaz gəlmirdi, su kəsilmişdi, işıq "marqat" eləyirdi, internet yoxa çıxmışdı, ATS-dən göndərilən əməkdaşın başına isə telefon dirəyi yıxılmışdı, çünki səhər saatlarından xətdəki problemi qaldırmağa gələn adam axşama doğru da gəlib çıxmamışdı, idarədən deyirdilər, dirək uçubdur. Bəlkə hadisələri şişirtdiyimi düşünərsiniz, ancaq mən hələ uşağın qarın ağrısına düşdüyünü, həyəti böcəklərin basdığını, qonşunun dənizdə boğulduğunu və şənbə günü evə qonaq gələcəyini yazmadım.

Paytaxt çox fəlakətli yerdir. Üstəlik, burada olimpiya çempionları, baş nazirin nəvələri, komitə sədrinin uşaqları, rəisin bacanaqları, prokurorun yeznələri, icra başçısının sürücüsünün dəlləyi, həmin dəlləyin sinif yoldaşı və sairə bu tipli təhlükəli adamlar dolaşmaqdadır. Onlar istənilən anda səni maşınlarının altına salıb öldürə bilərlər. Misal üçün, 3-4 gün qabaq bir əski həndbolçu çempion zənən xeylağı kimisə maşınla vurub öldürmüşdü. O hadisənin qazı yatmamış indi də deyirlər, baş nazirin müavininin sevimli nəvəsi avtomobillə 3-4 adamın ölümünə səbəb olubdur.

Nəvənin maşınının şəklini də verirlər, deyilənə görə, bunun qiymətinə bir babat BTR-dən-zaddan alıb Lələtəpə tərəfə sürmək olar. Qara yumor idi, əlbəttə. (Zarafat bir yana, ancaq bu maşının hərbi modeli də var, dünyanın çox ordusunda işləyir və elə bu modeli, deyilənə görə, 1979-cu ildə ilk dəfə İran şahı sifariş veribmiş. Ancaq "sürmədi getdi" demək olar). Bizim ordunun belə yardımlara ehtiyac yoxdur. Lazım gəlsə, biz özümüz xaricə silah və yaba satırıq. Babanın iş yeri təkcə baş nazirin müavinliyi olsa dərd yarıydı, yola verərdik gedərdi, onsuz baş nazirin özü neçə ildir elə maşın vurmuş kimi vəziyyətdədir. İşi korlayan odur ki, baba həm də, «Qaçqınkom», adlı kədərli idarənin müdiridir. O idarə ki, bir vaxtlar respublikaya gələn-gəlməyən hər kəsə əlimizdə onun tablosunu göstərib hüznlü şəkil alardıq, "sən o yanındakı qəşəng qızın canı bir nəzir ver" deyərdik. Uzun illər qaçqınları rezervasiyalarda saxladıq. Sonra neft pulu ilə ora-bura yerləşdirdik ki, bəlkə gözlərini işğal olunan torpaqlardan tamam çəkələr. Əks halda, hər gün bir rayon, hər saat bir kənd üsyana qalxıb "Bizi torpaqlarımıza qaytarın, bəsdir yalançı vədlər verdiniz!" deyirdi.

Bəli, indi bu «Qaçqınkom»un müdirinin nəvəsinin adı "Qaçqınvaqeə", ya da "Gələndən vaqonda qalırıq" sözünə oxşar "Gelandevagen" maşınında qəza törənməsində hallanır. Doğrudur, deyirlər 2 nəfərin ölməsi, 2 nəfərin ağır yaralanması ilə nəticələnən qəzada nəvə maşında olmayıbdır. Ancaq bu özü də pis haldır, rayon alınanda orda olmayan qaçqın kimi. Sözgəlişi, həmin bu "Gelandevagen" sözü almanca elə "Yolsuzluq avtomobili" kimi bir şey imiş. Tam qaçqın maşınıdır. Gördün erməni gəlir, min, dərədən-təpədən aşıb canını qurtar. Hökumətin planı var, yaxın beşillikdə bütün qaçqınlara "Gəlindavaqen" verəcəkdir. Gəlin da bə.

Ola bilər, baş nazirin müavini daha yüksək vəzifəyə getmək istəyir, o üzdən onun nəvəsinin qəza xəbərləri sürətlə mediada yayılır. Yaxşı vəzifə istəsə sakit durardı. Ola da bilər nəvənin olimpiya çempionuna hardasa rəğbəti varmış, qəzanı törədib ki, onun qəzası yaddan çıxsın, bəzi səfeh sosial şəbəkə istifadəçiləri demişkən, gündəm dəyişsin.

Meşədə, yanından çay axan, həyətində içi ördəklə dolu göl olan yiyəsiz torpaq sahəsi və daxma varsa gedib yaşamağa hazıram. Vaqon da olar. Əlaqə saxlayın. Bakıda qalanın ağlı yoxdur.

# Qərbin yeni Qafqaz strategiyası: kimə uduş, kimə fiasko...

**Dünya gündəminin 1 nömrəli mövzusu ABŞ-ın Rusiyaya qarşı yeni sanksiyalar paketi qəbul eləməsi və onun dərhal prezident D.Tramp tərəfindən imzalanmasıdır. Siyasi təhlilçilər, hətta Rusiyanın baş naziri Dmitri Medvedyev etiraf edirlər ki, bu, SSRİ-nin çöküşündən üzü bəri Moskvaya qarşı ən sərt sanksiyalar paketidir.**




## Rusiya təklənir, İrəvan səksənir, Bakıya şans qapısı açılır

### Ermənistan öz əsas işğal sponsorunun aqibətini bölüşmək istəmir, ancaq mümkünmü? Azərbaycanın isə Qərb üçün dəyəri artır, çünki...; **ekspert:** "Ox artıq yaydan çıxıb, Rusiyanın çökdürülməsi prosesinə başlanılıb..."

Medvedyev qanunu ən əvvəl Rusiyaya qarşı iqtisadi müharibə elan eləmək kimi qiymətləndirib. Onu da təəssüflə bildirib ki, bu sanksiyalar vaxtilə ABŞ Konqresi tərəfindən SSRİ əleyhinə qəbul edilmiş *(Sovet İttifaqının süqutunu tezləşdirmiş - A.X.)* Cekson-Venik düzəlişinin oxşarıdır. Yəni bundan sonra ABŞ-da kimin prezident olmasından asılı olmayaraq həmin sanksiyalar qanununu ləğv eləmək çox çətin olacaq, faktiki surətdə mümkün olmayacaq.

Beləcə, Vaşinqton-Moskva münasibətləri uzun müddətə pozulmuş sayıla bilər. Ekspert dairələri və geosiyasət adamları da vəziyyətin kritikliyinin fərqindədir və həm dünya, həm də region, o cümlədən postsovet məkanı üçün yeni situasiyanın nələr vəd etdiyini hesablamağa çalışırlar.

*****

"ABŞ-ın tətbiq etdiyi yeni sanksiyalar Rusiyanın artilleriya damarı olan neft və qaz sənayesinə güclü zərbə vuracaq". Bu fikri axar.az -a açıqlamasında **politoloq, keçmiş dövlət müşaviri Qabil Hüseynli** deyib. Politoloq bildirib ki, Rusiya prezidenti Vladimir Putinin avqustun 8-də Abxaziyaya səfəri ABŞ-ın sanksiyalarına qarşı cavab reaksiyasıdır.

"Yəqin ki, Putin Abxaziyada nəinki ABŞ-la, eyni zamanda bölgə ilə bağlı sərt mövqeyini ortaya qoyacaq. Moskva tərəfindən ən ağrılı qarşılanan məsələ Rusiyaya yönəlik sanksiyalardır. Yeni sanksiyalar əhatəliliyi ilə fərqlənir. Faktiki olaraq Rusiyanın bir çox, xüsusən də ciddi valyuta gətirən neft və qazçıxarma sahələrindəki planlarına ciddi zərbə dəyəcək. Rusiya Arktikada ABŞ-a məxsus müasir texnologiyaların köməyi ilə geoloji kəşfiyyat işləri aparır. İndi həmin şirkətlərin fəaliyyətinə qadağa qoyulacaq. Hətta "Türk axını" layihəsi də həyata keçməyə bilər", - deyə politoloq qeyd edib.

**Ekspertin qənaətincə, Vaşinqtonun güddüyü əsas hədəflərdən biri də odur ki, Rusiya ya Ukrayna ərazisindən keçməklə Avropaya qaz nəql edəcək, ya da Avropa bazarına Azərbaycan, Əlcəzair və lazım gəlsə, İsrail qazı çıxarılacaq:** "Sıxılmış qaz ehtiyatlarını isə ABŞ özü daha çox istehsal edir və bu da Avropa bazarlarına kifayət edir. Belə görünür, bu sanksiyalar Rusiyanın artilleriya damarı olan neft və qaz sənayesinə güclü zərbə vuracaq".

**Sabiq dövlət müşaviri digər yandan, Rusiyanın cəmi 100 kilometrliyində NATO-nun hərbi təlimlər keçirməsi və bu təlimlərdə bir çox alyans ölkələrinin hərbi qüvvələrinin iştirak etməsini Kremlə qarşı ciddi təhdid sayır:** "Diqqəti çəkən bir məqam isə nə qədər gülməli görünsə belə, təlimlərdə KTMT-nin üzvü olan Ermənistanın da məhdud saylı hərbi kontingentlə iştirakıdır. Belə təsəvvür yaranır ki, ya İrəvan Moskvaya meydan oxuyur, ya da Rusiyanın razılığı ilə təlimlərə kəşfiyyatçı kimi göndərilib. Hər halda, Cənubi Qafqazda NATO və ABŞ-ın daha da fəallaşdığının şahidi olmaqdayıq. Xüsusən də ABŞ-ın Gürcüstanın simasında göstərdiyi fəallıq və dəstək zənnimcə, çox şirnikləndiricidir və çox güman ki, region ölkələri bu vədə xüsusi diqqət yetirəcək. Açığı, Rusiyanı bütün sərhədləri boyu mühasirəyə almağı hədəfləyən ABŞ Cənubi Qafqazda fəallığını bundan sonra da artıracaq. Çünki ABŞ-ın strategiyasında Cənubi Qafqaz və Mərkəzi Asiyaya açılmaq, burada öz təsirini bərqərar etmək ön planda durur".

**Qabil Hüseynli hazırda Rusiyanın NATO ölkələri və ABŞ üçün bir nömrəli düşmən hesab edildiyini də deyib:** "ABŞ-ın Rusiyanı öz qabığına çəkilməyə vadar etmək istəməsi ciddi düşünülmüş bir strategiyadır. Bu strategiya artıq sanksiyalarla işə düşüb. Ox yaydan çıxıb, Rusiyanın çökdürülməsi prosesinə başlanılıb. ABŞ Rusiyanı Yeltsin dövrünə qaytarmaq istəyir. İstisna deyil ki, buna maraqlı olan dövlətlər içərisində Çin də var. Çin Uzaq Şərqə olan böyük iddialarını gizlətmir. Bir sözlə, Rusiya təklənib və bu cür təcrid vəziyyətində Rusiyanın Gürcüstan və ya regionun başqa bir ölkəsinə qarşı müəyyən xoşagəlməz niyyətlərini həyata keçirmə imkanı yox dərəcəsindədir".

*****

Rusiyanın təklənməsinə və çökdürülməsinə kurs götürülməsi sözsüz ki, Güney Qafqazda da yeni bir situasiya demək olacaq. Güney Qafqaz dedikdə isə göz önünə ilk növbədə Dağlıq Qarabağ məsələsi, Azərbaycan-Ermənistan münaqişəsi, müharibə vəziyyətində olan bu iki ölkə gəlir.

Şəksiz ki, Rusiyanın təklənməsinin bölgədə ən çox satellit Ermənistana, deməli, həm də Qarabağ məsələsinə təsiri olacaq. Ona görə ki, Kreml Dağlıq Qarabağ konfliktinin nizamlanması önündə əsas maneə, işğalçının əsas sponsoru olaraq qalır. İrəvanı ürküdən, narahat edən, alternativ çıxış yolu aramağa vadar edən əsas motiv də elə budur.

Son vaxtlar Ermənistanın altdan-altdan Qərbə yaxınlaşmağın mümkünlüyü barədə xəfif siqnallar verməsinin, ard-arda NATO təlimlərinə qatılmasının, noyabrda isə Avropa Birliyi ilə anlaşma sazişi imzalamağa hazırlaşmasının qayəsində də, bizcə, bu imperativ dayanır: fors-major vəziyyətdə tez Rusiyanı satıb, Qərbi qazanmaq.

Ancaq Moskva buna imkan verərmi? Məsələ həm də bundadır, çünki Rusiya nə qədər təklənib zəifləsə belə, Ermənistanın ona qarşı duruş gətirməsi mümkün deyil, sonuncunu cəzalandırmağa Kremlin vaxtı və imkanı çatar. Üstəlik, Rusiyanın bölgədə yeganə legitim hərbi bazası məhz Gümrüdə, Ermənistandadır. Moskva istəsə, İrəvanı Qarabağ məsələsi ilə - Azərbaycan vasitəsi ilə də cəzalandırar. Əslində Rusiyanın təklənməsi və başının özünə qarışması Bakıya onsuz da belə bir fürsəti yaradır.

*****

O da var ki, Moskvanın təklənməsi paralel surətdə Qərblə münasibətləri sərinləmiş Türkiyəyə Rusiyanın ehtiyacını artıracaq - bütün sferalarda: siyasi-diplomatik, iqtisadi-ticari, humanitar, hətta hərbi (S-400 raket kompleksləri ilə bağlı anlaşma buna sübutdur. Unutmayaq ki, Türkiyə indiyədək Rusiya əleyhinə sanksiyaların heç birinə qoşulmayıb).

Bu kimi gəlişmələr isə Güney Qafqaz bölgəsində Ankara ilə Moskvanın ortaq diplomatiya yürütməsi, Moskva-Ankara-Bakı üçbucağının real məzmun alması üçün təzə imkanlar aça bilər. Söhbət öncəliklə Dağlıq Qarabağ probleminin həllindən gedir. Ermənistan həm də bundan yana narahatdır.

Yəni İrəvan bir yandan, Rusiya timsalında 1 nömrəli müttəfiqinin Qərbin, ABŞ-ın qəzəbinə gəlməsinə görə səksəkə içindədirsə, - çünki bu halda əsas havadarının zəifləməsi və çökməsi onun arxasız qalması deməkdir, - digər yandan, regionda Türkiyə amili və Ankara-Moskva tandeminin güclənməsinə görə təlaşdadır.

**Haqlı təlaşdır.**

❑ Analitik xidmət

**"Prezident Putinin səfəri məhz Rusiyanın Gürcüstanla 2018-ci ilin 8 avqustunda başladığı müharibənin ildönümü ilə üst-üstə düşür və bu heç də təsadüfi deyil".**
**Politoloq Arzu Nağıyev bunu Rusiya prezidenti Vladimir Putinin Abxaziyaya gələn həftə nəzərdə tutulmuş səfərini "Yeni Müsavat"a şərh edərkən deyib.**



# "Sərkisyan və onun separatçı dəstəsi başa düşməlidir ki..."

## **Politoloq:** "Putinin Abxaziyaya səfəri Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir etməyəcək"

**Ekspert qeyd edib ki, Rusiya prezidentinin səfəri iki əsas məqsəd daşıyır:** "Birincisi, ümumiyyətlə, Abxaziyada daxili siyasi vəziyyət o qədər də ürəkaçan deyil. Belə ki, Rusiya bu separatçı quruma maddi dəstək, yatırımlar qoyulacağı haqqında bağlanmış müqavilələrin niyə yerinə yetirilməməsi ilə bağlı danışıqlar aparacaq. Abxaziya cəmiyyətində bölünmə baş verir. Bunun bir səbəbi maddi məsələlər olsa da, ikincisi Gürcüstanın Avropa Birliyi ilə vizasız rejim münasibətidir". **A.Nağıyev qeyd etdi ki, Putinin separatçı bölgəyə səfərinə rəvac verən digər əsas məqam ABŞ-ın vitse-prezidenti Maykl Pensin Gürcüstana son səfəridir:** "Bu iki məsələ Putini narahat edən ən böyük problemlərdəndir. Gürcüstan NATO-ya daxil olsa, Qara dəniz sahilini məhz Abxaziya istiqamətindən təhlükə gözləyir, bu isə Rusiya sahillərinə yaxın bir ərazidir və təhlükəsizliyə təhdiddir. Pens bu iki separatçı qurumu tanımadıqlarını bəyan etməklə, öz çıxışlarında da bu haqda çox açıq şəkildə danışır və hətta Abxaziya və Cənubi Osetiyanın güc yolu ilə Gürcüstana birləşdirilməsi təklifini də verir". **Politoloq xatırlatdı ki, bundan əvvəl Rusiya xarici işlər naziri S.Lavrov, həmçinin prezidentin köməkçisi Surkov Abxaziyada olublar:** "Putin də bu səfərə çox ciddi əhəmiyyət verir".

**Rusiyanın separatçı bölgələrə münasibətində həssaslığını artırması fonunda ölkənin baş nazirinin müavini Roqozinin Moldova hökumətini təhdid etməsi də sadə məsələ deyil. Separatçı Dnestryanıya buraxılmayan Rusiya hökumətinin nümayəndəsi Kişinyovu açıq şəkildə təhdid etməklə əslində gerçək siyasəti nümayiş etdirmiş oldu. A.Nağıyev də hesab edir ki, Roqozinin ətrafında baş verənlər çox ciddi bir prosesdən xəbər verir:** "Roqozin Moldova ərazisindən uça bilmədi və Rumıniya da buna imkan vermədi. Artıq Moldova hökuməti onu persona non-qrata elan edib. Yəni bu gəlişin məqsədi nə ola bilərdi? Son vaxtlar Dnestryanı separatçılarla Moldova arasına sülh danışıqları istiqamətində müsbət tendensiya yaranıb. Bu isə Rusiyanı narahat edir. Ona görə də Roqozin təcili surətdə ora getmək istədi".

**Bütün bu məsələlərin Ermənistanın işğalı altında olan Azərbaycan əraziləri ilə bağlı vəziyyətə necə təsir edəcəyi də bizim qarşımızda duran ciddi suallardan biridir. Siyasi təhlilçi hesab edir ki, separatçılarla bağlı baş verən bütün bu proseslər, həmçinin Putinin Abxaziyaya səfəri Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir etməyəcək:** "Eyni zamanda Serj Sərkisyan və onun separatçı dəstəsi başa düşməlidir ki, bu gün Rusiya bütün bu yaratdığı müharibə ocaqlarını tam nəzarətdə saxlaya bilmək iqtidarında deyil. Yəni birgə qoşun növü, KTMT-də üzvlük və s. ilk növbədə Rusiyanın özünə lazımdır ki, müharibəni öz sərhədlərindən uzaqlaşdırıb bufer zonalar yaratsın. Ona görə də Moskva belə manevrlər edir".

❑ **Cavid TURAN**



## BMT terrorçuları həvəsləndirir - Rusiya XİN bəyanat verdi

**BMT Təhlükəsizlik Şurasında ABŞ, İngiltərə, Fransa və Ukrayna nümayəndələri bir ay ərzində 3 dəfə Dəməşqdə Rusiya səfirliyinin atəşə tutulması ilə bağlı qınaq xarakterli çağırış etməkdən imtina edib.**

Axar.az xəbər verir ki, bu barədə Rusiya XİN bəyanat yayıb.

Rusiya tərəfi həmin ölkələri rus diplomatik nümayəndəliklərinə terror hücumları ilə bağlı mətbuata standart formalı, qınaq xaralterli, qısa bəyanat vermək təklifini qəbul etməməkdə günahlandırıb.

Bəyanatda qeyd olunub ki, BMT Təhlükəsizlik Şurası bu cür mövqe nümayiş etdirməklə terrorçuları həvəsləndirir və onlara cəzalandırılmayacaqlarını hiss etməyə imkan yaradır.

Xatırladaq ki, bir qədər əvvəl Suriyanın paytaxtı Dəməşqdə Rusiya səfirliyi atəşə tutulmuşdu.




## Ukraynadan Rusiyaya qarşı yeni zərbə

**Ukrayna Donbasda Rusiya telekanallarının yayımının qarşısını almaq üçün xüsusi sistemin sınağını keçirib.**

Axar.az xəbər verir ki, bu barədə Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Aleksandr Turçinov danışıb. Onun sözlərinə görə, sistem uğurla sınaqdan keçirilib.

"Bu sistem bizə Ukrayna telekanallarının yayımına mane olmadan Rusiya və separatçılıq təbliğatı aparan telekanalların analoq, rəqəmsal və peyk yayımlarının qarşısını almağa imkan yaradır",- Turçinov deyib.

# Sanksiyalar tale ortaqları İran və Rusiyanı küncə sıxır

## **Toğrul İsmayıl:** "Bu iki ölkə arasında ABŞ-a qarşı birbaşa olmasa da, ümumi maraqlar üzərindən formalaşmış ittifaq var"

**ABŞ Konqresinin Rusiyanı İran və Şimali Koreya ilə birlikdə "şər üçbucağı"na daxil etməsi iki ölkə əlaqələrində yeni mərhələnin əsasını qoydu. Artıq Moskva və Vaşinqton qarşılıqlı olaraq diplomatik təmsilçilikləri kiçildib. Ancaq heç şübhəsiz ki, qərarlar iki ölkəni bir sıra sahələrdə qarşı-qarşıya gətirəcək. Xüsusən də xarici siyasətdə ABŞ-Rusiya gərginliyi daha da dərinləşəcək.**



Hazırda dünyanın diqqətinin cəmləndiyi Yaxın Şərqdə də Rusiya-ABŞ gərginliyi özünü hiss etdirəcək. Suriya müharibəsi, İraqda antiterror əməliyyatları, Qətər və körfəz ölkələri arasında gərginlik, eləcə də Yəmən müharibəsi indi həm ABŞ, həm də Rusiyanın birbaşa və ya dolayısı ilə qatıldığı münaqişələrdir. Bunlardan bəzilərində, misal üçün, Suriyada ABŞ və Rusiya müttəfiq olmasa da koordinasiyalı fəaliyyət göstərir, hətta Suriyanın gələcək taleyi ilə bağlı ortaq mövqe sərgiləyə bilir.

Ancaq son sanksiya qərarları ilk dəfə olaraq "soyuq müharibə"dən sonra Rusiya və ABŞ düşmənçiliyini ən yuxarı həddə çıxardı. ABŞ Rusiyanı Şimali Koreya və İran kimi ölkələrlə yanaşı qoyaraq birbaşa mətndə "düşmən" olaraq qeyd elədi. Əcəba, bundan sonra nə olacaq? ABŞ-Rusiya münasibətlərinə hansı təsiri olacaq?

Putinin sanksiya qərarından sonrakı açıqlaması onu göstərdi ki, Moskva Konqresin qəbul etdiyi qanundan məyus və qəzəblidir. Məlum olduğu kimi, Rusiya faktiki olaraq hazırda Suriyada hökuməti dəstəkləyir və Bəşər Əsədin yenidən Suriya ərazisində iqtidarının bərpa olunmasında hərtərəfli dəstək nümayiş etdirir. Rusiyanın hərbi hava, hərbi dəniz, quru qoşunları, hətta azad edilmiş bölgələrdə hərbi polis qüvvələri Suriya ərazisində xidmət aparır.

**Politoloq, beynəlxalq münasibətlər üzrə mütəxəssis Toğrul İsmayıl deyir ki, sanksiyalar Rusiyanı daha da sərtləşdirəcək. Onun fikrincə, birbaşa qarşı-qarşıya gəlməsə də, Rusiya mövcud münaqişə bölgələrində ABŞ üçün əlavə problemlər yaratmağa çalışacaq:** "Ümumi mənada ABŞ-a gücü çatmasa da, vəziyyəti daha da mürəkkəbləşdirməyə səy edəcək. Beynəlxalq münasibətlərdə iqtisadi sanksiyaların dövlətlərin xarici siyasətinə ciddi təsir etmədiyi məlumdur. Yəni ABŞ sanksiyalarının Rusiyanın xarici siyasətinə, xüsusən də Suriya siyasətinə təsir edəcəyini gözləmirəm. Moskvanın sanksiyalar səbəbi ilə Suriya siyasətində dəyişiklik edəcəyi inandırıcı deyil".

Yeri gəlmişkən, artıq bir sıra analitiklər sanksiyalara məruz qalan ölkələrin ABŞ-a qarşı birləşə biləcəyini yazır. Ancaq Şimali Koreya, İran və Rusiyanın ABŞ-a qarşı hansı sahədə ittifaq qura biləcəyinin özü suallıdır. Məlum olduğu kimi, hər 3 ölkə ABŞ və AB ölkələrinin geniş miqyaslı iqtisadi və enerji embarqoları altındadır. İran və Rusiyanın müəyyən istehsal və enerji ehtiyatları olsa da, bunların dünya bazarına çıxarılması özü ciddi problemlərə səbəb olur.

T.İsmayıl deyir ki, ABŞ-a qarşı birbaşa olmasa da, bu iki ölkə arasında ümumi maraqlar üzərindən formalaşmış bir ittifaq var. Lakin ekspertin fikrincə, hər ölkənin öz mənfəətləri və fərqli yanaşmaları olduğu üçün onların bu tezliklə bir araya gəlib ittifaq qurması mümkün deyil. Həmsöhbətimiz deyir ki, hər 3 ölkə indiki mərhələdə sadəcə, anti-Amerika fəaliyyətlərində ortaq hərəkət edə bilərlər.

Yeri gəlmişkən, Rusiya və İran 3 ildən çoxdur ki, Suriyada birgə hərəkət edirlər. Bəşər Əsədin hakimiyyətdə qalması və bu gün mövqelərini möhkəmləndirməsi məhz Rusiya-İran ittifaqı sayəsində mümkün olub. Bundan başqa, 2014-cü ildə İŞİD Mosul işğal etdikdən sonra Rusiya İraq hökumətinə silah satmaqla bağlı anlaşma imzalayıb və ən son silahları Bağdada satıb. Ancaq Rusiyanın İraqda fəaliyyəti olmadığı üçün İraqda iki dövlətin hansısa əməkdaşlığından danışmaq olmaz.

Böyük ehtimalla, ruslar Vaşinqtonun son qərarından sonra məhz bu "sahədə" amerikalılara zərbə vurmağa çalışacaqlar. Avrasiya regionunda - istər Yaxın Şərq, istərsə də Mərkəzi Asiyada Amerika maraqları birbaşa olmasa da, dolayısı ilə rusların hücumuna məruz qala bilər. Yəqin ki, tezliklə Əfqanıstan, Suriya, Yəmən, İraq kimi münaqişə ölkələrində bunun təsirləri hiss olunmağa başlayacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017

**Xəbər verildiyi kimi, bu il ümumilikdə 15 abituriyent 700 bal toplayaraq ən yüksək nəticəni əldə edib. Onlardan 7 nəfəri 1-ci ixtisas qrupu üzrə, 2-si 2-ci, 3-ü 3-cü, 3 nəfəri isə 4-cü ixtisas qrupu üzrə imtahan verənlərdir. Həmin tələbələr aşağıdakılardır:**

# 700 bal toplamağın sirri

## Ən yüksək nəticəni əldə edən abituriyentlər "Yeni Müsavat"a danışdılar



Vahab Cəbrayılov (İsmayıllı rayonu Lahıc qəsəbə orta məktəbi), Xalidə Əliyeva (Bakı şəhəri 220 saylı məktəb-lisey), Mahirə Əsədzadə (Bakı şəhəri 162 saylı orta məktəb), Jalə Məmmədova (Xırdalan şəhər 5 nömrəli tam orta), Abdulla Əsgərzadə (Gəncə şəhəri 26 saylı məktəb-lisey kompleksinin məzunu), Arzu Məmmədzadə (Ağcabədi şəhəri, 3 saylı məktəb), İlhamə Hüseynova (Nəsimi rayonu 111 saylı orta məktəb), Pərvin Əhmədova (Suraxanı rayonu 278 saylı orta məktəb), Eldar Əfəndiyev (Sumqayıt şəhəri TETG), Nemət Yusifov (287 saylı "Zəkalar" liseyi), Akademik Z.Əliyeva adına liseyin məzunları- Elmir Əhmədov, Səbinə İsmayılova; Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin məzunları- Qabil Əliyev, Ziya Müslümov, Cavad Əliyev.

Maraqlıdır, ən yüksək bal toplamağın sirri nədir? Bəziləri düşünür ki, bunun üçün abituriyent mütləq şəkildə repetitor yanına hazırlıqlara getməli, xüsusi sınaq imtahanlarında iştirak etməlidir. Lakin məlumdur ki, repetitor hazırlıqlarına gedən bəzi abituriyentlər heç 100-dən yuxarı bal toplaya bilmir. Bəzən də buna imkanı olmayan, yalnız öz gücünə əzmkarlıqla hazırlaşan abituriyentlərin ən yüksək nəticə göstərdiyinin şahidi oluruq. Bəs bu il 700 bal toplayan tələbələr ən yüksək nəticəni necə əldə edib?

**Bununla bağlı 700 bal toplayan tələbələr arasında sorğu keçirdik. Bakı şəhəri 220 saylı məktəb-liseyin məzunu olan Xalidə Əliyeva yüksək nəticə əldə etməyinin sirrini belə açıqladı:** "İlk öncə məqsədyönlü çalışmaq, diqqətlə müəllimlərin tapşırıqlarına qulaq asmaq lazımdır. Mən repititor yanına hazırlıqlara getmişdim - fizika, riyaziyyat və kimyadan 2 il, dil hazırlıqlarına isə bir il. Mütəmadi olaraq dərslərə gedirdim. Həm dərslərdə müntəzəm iştirak etməyim, həm də hazırlıqlarım üst-üstə mənə bu nəticəni qazandırdı".

X.Əliyeva Bakı Ali Neft Məktəbini seçdiyini bildirdi.

**Elmir Əhmədov isə əzmkarlıqla çalışaraq yüksək nəticəni əldə etdiyini dedi: "Deməzdim ki, 700 bal toplamağın xüsusi sirri var. Bunun əsas səbəb çoxlu çalışmağım, dərslərə məsuliyyətlə yanaşmağımdır".**

Qeyd edək ki, Elmir Əhmədovun da seçimi Bakı Ali Neft Məktəbi olub.

Xırdalan şəhər 5 nömrəli tam orta məktəbin məzunu **Jalə Məmmədova** da hesab edir ki, yalnız böyük əzm sayəsində 700 ballıq nəticəni əldə etmək olar.

**Cavad Əliyev də 700 bal toplamağın xüsusi sirri olmadığını vurğuladı:** "Düşünmürəm ki, burada bir sirr var. Sadəcə, əzmlə çalışmaq gərəkdir. Ən vacibi isə tapşırıqları vaxtı-vaxtında yerinə yetirməkdir".

Cavad Əliyev İqtisadiyyat Universitetini seçib.

**Vahab Cəbrayılov isə bu il 700 bal toplayanlar arasında ən çox diqqət çəkən tələbə olub. Belə ki, o, repetitor hazırlığı olmadan ən yüksək nəticəni əldə edib. "Yeni Müsavat"a danışan tələbənin sözlərinə görə, iki il öncə Respublika Olimpiadasında riyaziyyat fənni üzrə 3-cü yeri tutub:** "Çalışmaq, daim çalışmaq lazımdır. Repetitor yanında getmədən bu nəticəni əldə etdim. Daha çox sınaq imtahanlarında iştirak edirdim".

Vahab Cəbrayılov Bakı Ali Neft Məktəbini seçdiyini bildirdi.

Xatırladaq ki, ötən il də İsmayıllı rayonunun 5 saylı orta məktəbinin məzunu - Ağalətif Lətifov 700 bal toplamışdı.

**Sumqayıt şəhəri TETG-nin məzunu Eldar Əfəndiyev isə bildirdi ki, son iki il ərzində repetitor yanına hazırlıqlara gedərək yüksək nəticə əldə edib:** "Lakin repetitor hazırlığı buna yetmir. Buna qədər dərslərə daim hazırlaşmalı, bilik bazasına malik olmaq lazımdır. Həmçinin bu müddətdə fəal hazırlıq rejimi lazımdır".

Eldar Əfəndiyev Tibb Universitetini seçdiyini bildirdi.

Ekspertlər də qeyd edirlər ki, yüksək nəticə əldə etmək üçün hələ aşağı siniflərdən mütəmadi olaraq gündəlik dərslərə yiyələnmək lazımdır. Valideynlər isə övladlarının imtahana hazırlığı prosesində fənn hazırlığı ilə paralel olaraq, psixoloji hazırlığı da diqqətdə saxlamalıdır. Çünki məlum məsələdir ki, yüksək nəticə əldə etmək üçün imtahan zamanı həyəcandan, stressdən uzaq, hazırlıq dönəmində qavranılan biliyi nümayiş etdirmək heç də asan deyil. Bunun üçün valideynlərin dəstəyi xüsusilə vacibdir.

❑ **Xalidə GƏRAY**

# "MTN işi"ndə şok qərar - hakim zorla alınan pulu rüşvət saymır, bəs nəyi sayır?

## Əkrəm Həsənov: "Zərərçəkənlərə tövsiyəm odur ki, Avropa Məhkəməsinə qədər getsinlər"



**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyi (MTN) İstintaq Baş İdarəsi 2-ci istintaq şöbəsinin sabiq rəisi Vüsal Ələkbərov barəsində çıxarılan hökmdən zərərçəkənlər də, onun özü də narazıdır.**

Xatırladaq ki, Vüsal Ələkbərov Cinayət Məcəlləsinin 4 maddəsi - (182.3.2) mütəşəkkil dəstə tərəfindən, külli miqdarda əmlak əldə etmək məqsədi ilə hədə-qorxu gəlmə, (294.3) sübutları saxtalaşdırma, ağır və ya xüsusilə ağır cinayətlər haqda cinayət işi üzrə sübutları saxtalaşdırma, digər işlər üzrə sübutların saxtalaşdırılması ağır nəticələrə səbəb olma, (311.3.4) qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən, təkrar, külli miqdarda, hədə-qorxu tətbiq olunmaqla rüşvət alma, (341.2.3) bir qrup şəxs tərəfindən, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə etmə, hakimiyyət həddini aşma və ya hakimiyyətdən istifadə etməmə maddələri ilə ittiham olunaraq həbs edilmişdi və barəsində ittihamı təsdiqləyən hökm verilib.

İttihama görə, təqsirləndirilən şəxs iş adamlarını MTN-ə gətizdirib (başına torba keçirilən kim, gecə yarısı evindən hay-küylə, qışqır-bağırla oğurlanan kim, küçədə döyülərək, alçaldılaraq aparılan kim), hədə-qorxu yolu ilə onların külli miqdarda pulunu ələ keçirib. 1 ilə yaxın davam edən məhkəmə araşdırmalarından sonra Bakı Hərbi Məhkəməsi Vüsal Ələkbərovun barəsində ittihamı təsdiq edən hökm çıxardı - 12 il müddətinə azadlıqdan məhrum olunması, polkovnik rütbəsindən azad edilməsi və ona, həyat yoldaşı Şəhla Ələkbərovaya məxsus Badamdar qəsəbəsindəki 0,18 hektar torpaq sahəsi, üzərində yerləşən fərdi yaşayış evi, Şərifzadə küçəsindəki mənzili, ümumi dəyəri 1 milyon 277 min manat olan əmlaklarının müsadirəsi nəzərdə tutulur.

Məhkəmə cinayət işində zərərçəkmiş kimi tanınan və mülki iddiaçı kimi çıxış edən şəxslərin Vüsal Ələkbərova qarşı - Nizami Kazımovun 2 milyon dollar, Hüseyn Səfərov 2 milyon dollar, Elşən Mədətov 250 min dollar, Mehrac Qurbanov 200 min dollar, Namil Rzayev 500 min dollar, Bahəddin Sultanov 370 min dollar, Müsənnif Salahov isə 600 min manat məbləğində mülki iddialarını təmin etməmişdi. Hökmdə yazılıb ki, zərərçəkmişlər həmin məbləğlərdə pulu Vüsal Ələkbərova rüşvət qismində veriblər və buna görə də onların mülki iddiaları təmin edilmir.

Zərərçəkmişlər hökmün bu hissəsinin ləğv edilməsini və onların mülki iddialarının təmin olunması üçün apelyasiya şikayəti veriblər. V.Ələkbərovun vəkilləri də hesab edirlər ki, müvəkkilləri barəsində bəraət hökmü çıxarılmalıdır.

Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun yaxın ətrafına daxil olan V.Ələkbərovun barəsində çıxarılan hökmlə tanış olanlar hakimlərin ədalət hissinə böyük şübhə ilə yanaşırlar. İttihamda yazılır ki, Vüsal Ələkbərov mütəşəkkil dəstənin tərkibində iş adamlarının külli miqdarda əmlakını ələ etmək məqsədilə hədə-qorxu gəlib, hədə-qorxu tətbiq olunmaqla rüşvət alıb, xüsusilə ağır cinayətlər haqda cinayət işi üzrə sübutları saxtalaşdırıb, ağır nəticələrə səbəb olmaqla hakimiyyətdən sui-istifadə edib.

Məhkəmə də araşdırıb və belə nəticəyə gəlib ki, bəli, Vüsal Ələkbərov bu cinayətləri törədib və barəsində müvafiq olaraq ittihamedici - yəni ittihamı təsdiqləyən hökm çıxarıb. Hökmlə təsdiq olunub ki, iş üzrə zərərçəkənləri MTN-ə aparıblar, barələrində cinayət işləri başlayacaqları hədəsi ilə rüşvət tələb ediblər. Zərərçəkənlərin də rüşvəti verməkdən başqa yolları olmayıb. İncə məqam odur ki, qanun həmin o zərərçəkənlərin həm də iş üzrə mülki iddiaçı olmalarına imkan verir. Onlar da bu hüquqlarından istifadə edib Vüsal Ələkbərova qarşı mülki iddia qaldırıb onlara vurduğu ziyanı tələb edirlər. Məhkəmə bir tərəfdən ittihamı təsdiqləyir, digər tərəfdən isə mülki iddiaları rədd etməklə ittihamı təkzib edir.

**Hüquqşünas Əkrəm Həsənovun sözlərinə görə, ittihamdan görünür ki, iş üzrə zərərçəkənlərdən pullar zorla alınıb. Yəni onlara hədə-qorxu gəlinib:** "Həmin zərərçəkənlərin vəziyyətinə hər kəsi sala bilərdilər. MTN-ə aparıb hədələyər, günlərlə ac-susuz saxlayıb döyər, sonda da pulunu alıb buraxa bilərdilər. Üstəlik, hədələyərdilər ki, bu haqda heç kimə heç nə demə. Bizdən də şikayət etmə. Məsələn, iş adamına gəlib deyə bilərdilər ki, filan qədər verəcəksən. İş adamı da həmin pulu verməkdən imtina edə bilərdi. Onu tutub MTN-ə aparar, ittihamsız-filansız saxlaya, hədə-qorxu gələ bilərdilər. Deyə bilərdilər ki, səni öldürəcəyik. Belə hədələrin qarşısında heç həmin müstəntiqin özü də dayana bilməzdi, ondan tələb olunan pulu ordan-burdan da olsa tapıb verərdi. Bunu rüşvət hesab etmək, yumşaq desək, qanunları kənara qoymaqdır. Faktiki olaraq iş üzrə zərərçəkənlərin pullarını zorla, hədə-qorxu ilə əllərindən alıblar. Bu fakt ortalıqdadır. Ona görə də zərərçəkənlər pullarını almaq üçün sona qədər mübarizə aparmalıdırlar".

**Ə.Həsənov hesab edir ki, belə hökmlərin ortaya çıxması ilə ölkədəki hüquq təhsilinin birbaşa əlaqəsi var:** "12 ildir ki, Azərbaycanda 1 dənə də olsa hüquq sahəsinə aid kitab yazılmayıb! Hakimlərin, hüquqşünasların, vəkillərin hüquqi savadı çox aşağı səviyyədədir. Amma bəzi hallar var ki, orada hüquqi savada ehtiyac yoxdur. Məsələ çox konkretdir, ittihamda da yazılıb ki, adamları MTN-ə aparıb günlərlə saxlayıblar və bu məhkəmədə sübut olunubsa, deməli, həmin adamların MTN-ə aparılmasında niyyət də elə onlardan hədə-qorxu ilə mal-mülk, pul tələb etmək, almaq olub. Burada dərin hüquqi savad lazım deyil. Əlbəttə ki, hakimlərin hüquqi savadsızlığı da var, xeyli hallarda qanunsuzluqları və ədalətsizlikləri də yox deyil".

**Hüquqşünas zərərçəkənlərə tövsiyə edir ki, sona qədər mübarizə aparıb haqlarını tələb etsinlər:** "Azərbaycan məhkəmələrində korrupsiya var. İri məbləğli iddiaları elə belə təmin etmirlər. O da mümkündür ki, iş üzrə zərərçəkənlər Azərbaycanda bu məsələlərin mövcudluğundan xəbərsiz olublar. İş üzrə zərərçəkənlərə tövsiyəm odur ki, mütləq Avropa Məhkəməsinə qədər getsinlər. Onların mülkiyyət hüququ, ədalətli məhkəmə araşdırması hüququ pozulub. Onların bu hüquqlarını pozan da dövlət məmurlarıdır. Avropa Məhkəməsində bu işin perspektivi var".

❑ **E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017

**İşğalçı Ermənistan indi də Rusiya ilə ABŞ arasında var-gəl eləməyə başlayıb. Belə görünür ki, həm Qarabağdakı separatçı-terrorçular, həm də Ermənistanın başında duran cinayətkar rejim erməni xalqını daha bir neçə il aldatmaq üçün yollar axtarırlar. Çünki ötən böyük zaman kəsiyində - az qala, 30 ildə onların Dağlıq Qarabağı Ermənistana de-yure birləşdirmək və ya de-yure müstəqil eləməklə bağlı verdikləri vədlər bütünlüklə fiasko olub.**






# "Qalib" Ermənistan məğlub günündə - "Pirr qələbəsi"nə dəyərdimi?

## Status-kvonun uzanması ən çox işğalçı ölkənin ziyanına işləməkdədir, nəinki Azərbaycanın; sabiq XİN başçısı: "Uduzduğumuz müharibənin qalibi ermənilər deyil..."

**Bu xüsusda sabiq xarici işlər naziri Tofiq Zülfüqarovun Ağdamın işğalının ildönümü ilə bağlı özünün facebook səhifəsində yazdığı status ibrətamizdir. Ermənilər üçün təbii ki. Musavat.com həmin statusu olduğu kimi təqdim edir:**

"İyulun 23-də Ağdamın işğalının ildönümü idi. İşğal nəticəsində 30 min sakin öz yurd yerlərindən didərgin salındı, onların evləri qarət edildi və dağıdıldı. 90-cı illərin əvvəllərində bizim müharibəni uduzmağımız aydındır, ancaq erməniləri qalib adlandırmaq olarmı? Ermənilərə heç vaxt yaşamadıqları və heç vaxt yaşamayacaqları torpaqlar nəyə lazım? Hansı məqsədin xətrinə onlar həlak oldular və əsgərləri həlak olmaqda davam edir? Niyə onların banda başçıları, - hansılar ki, özlərini ərəbcə "fədai" adlandırırdı, - bu gün Qarabağdan başqa harda gəldi yaşayırlar? Niyə bu "qəhrəman-qurtluşçular" evlər tikmirlər - hansı evlərdə ki, indi onların uşaqları yaşamalı və "qələbə"nin meyvələrini dadmalı idilər? Siz təsəvvür edə bilərsinizmi ki, komandan Fidel Kastro qələbədən sonra yaşamaq üçün öz ailəsi ilə birgə hardasa xaricə, uzaqlara çəkilsin və Kubaya da yalnız məzuniyyət mövsümündəki kimi, arada bir, bağ evinə gələn kimi gəlsin? Bu, nə absurd teatrdır önümüzdə oynanılır? Niyə vasitəçilər artıq 25 ildir erməniləri işğal elədikləri torpaqlardan çıxmağa məcbur edə bilmirlər? Başa düşmürəm və qəbul eləmirəm! Heç vaxt da razılaşmayacağam!"

*****

Əslində sabiq diplomatın qoyduğu sualların hamısı ritorikdir. Yəni onların cavabını özü də pis bilmir - uzun illər Qarabağ danışıqlarının içində olan vəzifəli şəxs kimi, XİN başçısı kimi. T.Zülfüqarov bilməmiş deyil ki, Azərbaycanın müvəqqəti uduzduğu müharibənin qalibi Ermənistan yox, Rusiyadır. Eks-nazir onu da bilməmiş deyil ki, ərazilərimizin işğalının bunca uzanmasının birinci səbəbi Ermənistan tox, Ermənistanla yumşaq davranan, daha dəqiqi, onu işğalçı kimi tanımaq istəməyən ATƏT-in Minsk Qrupu həmsərdləridir.

Halbuki buna onların nə hüquqi, nə də mənəvi haqları var. Ən azından ona görə ki, BMT Nizamnaməsini, BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağa dair 4 məlum qətnaməsini, nəhayət, ölkələrin ərazi bütövlüyünü zor gücünə dəyişməyi yasaqlayan beynəlxalq hüququ heç kim ləğv eləməyib.

Necə olur, Gürcüstan, Ukrayna, Moldovaya münasibətdə Qərbin aparıcı gücləri bunu dərhal gözə soxur, Rusiyanı işğalçı adlandırır, ona qarşı sanksiyalar tətbiq edir, amma eyni işğalçı hərəkəti eləmiş Ermənistana qarşı tam fərqli bir davranış sərgiləyir, onun başı sığallanır, sanksiyalar bir yana, hətta ərazisi işğal edilmiş Azərbaycandan güzəşt tələb edirlər?

Azərbaycandan hansı güzəşti gözləyirlər, ərazi güzəştimi? Nə Azərbaycan xalqı, nə də Azərbaycandakı heç bir siyasi qüvvə buna heç vaxt getməyəcək. Azərbaycanda onun ərazi bütövlüyünün ikinci erməni "dövləti"nin qurulması hesabına dəyişdirilməsinə razı olacaq nəinki siyasi qüvvə, heç bircə adam belə yoxdur!

Bu xüsusda Azərbaycan prezidenti az öncə etdiyi çıxışların birində bizdən güzəşt gözləyən bədxahlara haqlı olaraq belə bir mesaj göndərmişdi ki, "bunu gözləyənlər boşuna gözləyir, belə bir şey heç vaxt olmayacaq!" Prezident yalançı qələbə eyforiyası içində olan düşmənə onu da ismarış kimi bəyan eləmişdi ki, müharibə hələ bitməyib, onun yalnız birinci hissəsi başa çatıb.

*****

Doğrudur, işğal rejiminin, status-kvonun uzanması Azərbaycan üçün də əlavə itkilər deməkdir. Amma izolyasiya rejimində olan və iqtisadiyyatı rüşeym halından çıxa bilməyən Ermənistan üçün qat-qat böyük itkilər, yeni-yeni məhrumiyyətlər deməkdir. Biz hələ silahlanma yarışının işğalçı ölkəni necə daha ağır vəziyyətə və Rusiyadan daha güclü asılılığa saldığını demirik.

Rusiya isə Dağlıq Qarabağ məsələsinin Ermənistanın xeyrinə də həllini istəmir. Bunu, deyəsən, ermənilər indi-indi anlamağa başlayıblar. Keşkə, onu da tezliklə anlayaydılar ki, Qarabağ məsələsinin həlli Rusiya və Qərbdən daha çox Ermənistanın Azərbaycanla dil tapmasından keçir.

Yolu bəlli. Nə qədər ki, erməni xalqı və onun başbilənləri bu sadə gerçəyi anlamayıb, nə qədər ki, erməni toplumu Xocalı hərbi canisi Serj Sərkisyan və bandasının Qarabağ və xoşbəxtlik nağıllarına inanmaqda davam edəcək, o vaxtadək də onların iztirabları bitməyəcək, Qarabağ xülyası, "miatsum" dərdi erməni xalqının başına hələ çox müsibətlər gətirəcək.

Sadə ermənilər artıq anlamağa başlayıblar ki, bu kimi boş və əsassız vədlərə görə illərdir iztirab çəkməyə, sıxıntı keçirməyə lüzum yoxmuş - ona görə ki, heç kim Ermənistanın ərazisinin Dağlıq Qarabağ hesabına genişləndirilməsini real saymır. Diqqət edin, əgər Rusiya kimi bir dövlət, hərbi supergüc Krımın, Abxaziya və Cənubi Osetiyanın işğalını illərdir qanuniləşdirə bilmirsə, heç yerdə ciddi söz sahibi olmayan cırtdan Ermənistanın edəcəyi, ümumiyyətlə, mümkün deyil və absurddur.

İrəvanın bu günədək Dağlıq Qarabağdakı separatçı qurumun "müstəqilliyini" tanımağa cürət eləməməsi qənaətimizi bir daha təsdiqləyir. Lap tanısaydı belə, nə dəyişəcəkdi ki? Dünya, Qərb Dağlıq Qarabağı müstəqil dövlət kimi qəbul edəcəkdimi? Xeyr. Rusiya Abxaziya və Cənubi Osetiyanı dövlət kimi tanıyıb, bununla onlar müstəqil dövlətmi olub? Olmayıb.

Odur ki, məntiqi sual ortaya çıxır: Ermənistan işğalçılıq siyasəti ilə nəyə nail olub? Dövlətçiliyi möhkəmlənibmi, erməni xalqı rifaha qovuşubmu? Dağlıq Qarabağa görə bunca canlı və maddi itkilərə, davam eləməkdə olan çətinliklərə və izolyasiya rejiminə, ödənilən bədələ, bitib tükənməyən əsgər ölümlərinə dəyərdimi?



# Erməni işğalçı ordusunda yoluxucu xəstəliklər yayılıb

**Ermənistan ordusunun işğal altındakı Madagizdə yerləşən hərbi hissələrdən birinin cəbhə xəttindəki bölmələrində içməli su çatışmazlığından çirkab sulardan istifadə edən əsgərlər arasında yoluxucu xəstəliklər yayılıb.**

APA-nın məlumatına görə, Karantin tədbirlərinin görülməsinə baxmayaraq, Aram Arakelyan adlı hərbi qulluqçunun səhhətində ciddi problemlər yaranıb və o, ağır vəziyyətdə Xankəndindəki hərbi hospitala yerləşdirilib. Hadisə ictimaiyyətdən gizlədilsə də, "DQR" "kənd təsərrüfatı naziri" Aram Mxoyan, "ətraf mühit və təbii ehtiyatlar üzrə idarə rəisinin birinci müavini" Artur Qabrielyan və yerli "hərbi komandanlığın" iştirakı ilə hərbi hissələrin içməli su ilə təminatına dair fövqəladə toplantı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017

# Rusiyada həbs edilən ölüm dəstəsinin qorxunc hekayəsi

## Bu ölkədə yaşayan Qırğızıstan və Tacikistan vətəndaşları gündüzlər süpürgəçilik edib, gecələr qatilə çevriliblər; onlar Hizbi-Təhrir, İŞİD kimi terror təşkilatları ilə sıx əlaqədə olublar

**1 avqust 2017-ci ildə Moskva Əyalət Məhkəməsi binasında baş verən atışmanı kənardan müşahidə etsən, deyərdin, bəs burda çoxseriyalı kriminal bir filmin növbəti seriyası lentə alınır. Müşahidə kameralarının bulanıq gözünə gərək burda "çox sağ ol" deyək. Güllələbaranı axıracan bitdə-bitdə qeydə alıblar. Cinayətin qısa xronikası belədir: Əli qanlı cinayətkarlar - "QTA" bandasının 5 üzvü, məhkəmə zalına gətirilərkən qəfil necə olursa, nəzarətdən yayınmağı bacarıblar. Liftdə ikən, 2 mühafizəçini tərk-silah edib, girov götürüblər, qoyun kimi qatıblar qabaqlarına.**



Tapançaları öz sahiblərinə qarşı çevirməyi bacaran qatı cinayətkarlar, liftdən eşiyə çıxınca qəfil Rosqvardiya yaraqlıları ilə üzbəüz gəlirlər. Qanlı atışma zamanı 3 cinayətkar yerindəcə həlak olub, ikisi ağır yaralanıb. Mühafizəçilər, Rosqvardiya üzvləri arasında çox sayda yaralı müşahidə edilsə də, rəsmi nümayəndələr bunu hələ də təsdiqləmirlər.

Rusiya DİN-in rəsmi sözçüsü Tatyana Petrova cari hadisələrə xəsiscəsinə şərh verib: **"Məhkəmə zalında müqəssirlər 9 nəfər olub. Fasilə zamanı 2 mühafizəçi, habelə 5 müqəssir liftə girib aşağı enmək istəyiblər. Cinayətkarlar qəfil lifti yararsız hala salıb mühafizəçiləri girov götürüblər. Qalxıblar üçüncü mərtəbəyə. Gözlənilmədən orda Rosqvardiya yaraqlıları ilə toqquşublar".**

***

Yəni qana susamış qatı banditləri neytrallaşdırmaq ancaq sırf təsadüf nəticəsində mümkün olub. Demə, Rosqvardiya üzvləri binadakı tam başqa bir prosesin təhlükəsizliyini təmin edirmişlər. Hay-küyə dəhlizə sıçrayıb, cinayətkarlara müqavimət göstəriblər.

Qanlı atışmada Abdumukim Mamadcanov, Mirzəmövlon Mirzoşaripov və Xolik Subxanov öldürülüb, Fazlitdin Həsənov, Zəfərcon Qulamov isə ağır yaralanıblar. Daha dörd müqəssir - Həzrəthon Dodoxonov, Ənvər Uluqmuradov, Umar Həsənov Şirozcon Kodirov bu zaman məhkəmə zalındadaymışlar.

Güllələbaran indiyədək Rusiya mətbuatının diqqət mərkəzindədir. Jurnalistlər qanlı hadisələri nöqtə-vergülünədək öyrənib ortadakı müəmmalara, ziddiyyətlərə xüsusi diqqət ayırırlar: Niyə cinayətkarların qolları arxadan deyil, qabaqdan qandallanıb? Niyə qanunazidd olaraq müqəssirlərə liftdən istifadə etməyə icazə veriblər? Niyə bu təxliyə zamanı köməkçi yan pilləkəndən istifadə edilməyib və s.

***





Cinayətkarların əksəri Qırğızıstan, Tacikistan vətəndaşlarıdır. Gündüzlər Rusiya küçələrində süpürgəçilik edib, gecələr banditə dönən bu müqəssirlərin boynunda 17 ölüm işi var. İti caynaqlarından indiyədək cəmi üçcə qurban qaçıb canını qurtara bilib. Cinayətkar dəstənin dəsti-xəttini xırdalayan dedektivlər bir gün görürlər bu qətllər nöqtə-vergülünə qədər "Grand Theft Auto" (qısaca QTA) bilgisayar oyununu təkrarlayır. Şərti ad, bir gün qalın qovluqların üzərinə həkk edilir. Başlayır tədricən həcmcə şişməyə.




Törədilmiş bütün qətllərdə məqsəd nə olub bəs? Bax, bunu müstəntiqlər, jurnalistlər anlamırlar indiyədək. Deyəsən soyğunçuluq ediblər, kiminsə cibinə giriblər, cüzdanını aparıblar, qulağından sırğasını dartıblar? Yox! Avtomobilini oğurlayıblar, bahalı paltarlarına göz dikiblər? Yenə də yox!

Dəstə üzvləri - zibilçilər öz qurbanlarına da zibil kimi baxırdılar. Gecənin qatı zülmət, necə deyərlər, "xain vaxtında" ümumrusiya əhəmiyyətli "M4Don" magistralına çıxıb "dəmir tikan" sipərləri atırmışlar asfalt üzərinə. Təkəri zədələnən sürücülərin pəncəsi yerə dəydimi, vəssalam. Səsboğuculu əldəqayırma tapançalar işə düşürdü əvvəlcə. Ay nurunda baltaların, bıçaqların tiyəsi parıldayırdı.

Cinayətkarlar sanki hardasa müvafiq hazırlıq təhsili keçmişdilər. Sərrast atəş açır, əməliyyata əl telefonlarını, digər rabitə qurğularını götürmürdülər. Qoyurdular qalsın evdə.

Qətllərin məqsədi, hədəfi bilinmir indiyədək. Bilinmir niyə bu alçaqlar öz qurbanlarının pul cüzdanına əsla toxummayıb, niyə bu yazığın tutaq ki, cib darağını mənimsəyiblər? Niyə bir qadının sürücülük vəsiqəsini götürüb qır-qızılına dəyməyiblər? Qulağındakı bahalı sırğasını dartıb çıxarmayıblar?

Doqquz ay davam edən məhkəmə iclasları zamanı əsl həqiqət hələ də üzə çıxmayıb. Canilərdən biri - Bəxtiyar Yusupov hələ də axtarışdadır. "Xüsusi təyinatlılara məxsus soyuqqanlılıq, konspiroloji gedişlər, fəndlər bu süpürgəçilərə hardan məlum olub?" - sualı, hələ də havadadır.

***

Özlərini "camaat" adlandıran bu qatı cinayətkarların izinə Rusiya hüquq-mühafizə əməkdaşları hələ 2014-cü ildə düşürlər. Dəstənin ilk rəhbəri - İbaydulla Sübhanov çox təhlükəli adammış. Saxlanma zamanı yanğın törədib anbardakı 60-a yaxın silahı yox etmək istəyirmiş. Əməliyyat zamanı 10-a yaxın təqsirkar həbsə alınır. Bəlli olur ki, dəstənin başçısı Rüstəm Rəhimov *(sənədlərdə Ubaydulla Sübhanov),* aşırı dinçilərlə Qırğızıstanda əlaqəyə girib. Suriyada xüsusi hazırlıq keçdikdən sonra Rusiya ərazisinə sızdırılıb. Hizbi-Təhrir, İŞİD kimi qanunsuz qurumlarla sıx əməkdaşlıq edib.

Hazırlıq dövrü bitib son imtahan vaxtı gələndə bu Ubaydulla Sübhanov dinc durmurmuş. Tələbələrini gecə yarısı çıxarırmış sürətli avtomobil yollarına. Pusqu qururdu orda bəxtsiz sürücülərə qarşı.

6 noyabr 2014-cü ildə həbs edilmiş bu cinayətkarlar daha nələrə qadir olduqlarını son qanlı olayla bir daha sübut etdilər.

Hələ 8 noyabr 2014-cü ildə Rusiya prezidenti Vladimir Putin daxili işlər naziri Vladimir Kolokoltsevə əməliyyatın uğurlu nəticələrinə görə təşəkkür elan edib.

13 noyabr 2014-cü ildə isə mövzu, tam yeni məna qazanır özünə. Görün bir nə bəlli olur o zaman: **"Rusiya Prokurorluğunun məsul işçisi Aleksey Staroverov, həbs zamanı həlak olmuş Qırğızıstan vətəndaşı Usmanovu kirayənişin kimi öz bağında saxlayırmış. Həbsdən az öncə müqəssirin ailəsi ordan yoxa çıxıb. Fərz edilir ki...Staroverov ən varlı hüquq-mühafizə işçisi kimi tanınır Rusiyada. Adı hətta "Forbes" jurnalındakı top-onluqlara düşür bəzən".**

***

Dəstənin ideoloqları Bair Qulomov, Fərrux Əzimcanov Tacikistanda aşkarlanıb həbs ediliblər. Yaxınlarda bu şəxslər də Rusiyaya təxliyə edilib müqəssirlər kürsüsündə öz layiqli yerlərini tutacaqlar.

23 iyun 2016-cı ildə RF İstintaq Komissiyası cinayət araşdırmasını sona çatdıraraq şişman qovluqlarını məhkəməyə göndərir. İttihamlar, cinayət işində adı keçən 9 müqəssirə ünvanlanır. Ancaq məlum atışma vaxtı bu məqəssirlərin üçü öldürülür, ikisi bərk yaralanır deyə, məhkəməni təxirə salırlar.

Canilərin təlim gördüyü ünvan sözsüz Qırğızıstandakı "Manas" bazası olub.

Ruslar hələ 2010-cu ildə Dubay-Bişkek hava xəttini nəzarətə götürdüyü zaman bu qatillərin izinə düşürlər.

**Rusiya ərazisindəki əksər islamçılar çoxdan izlənilib müşahidə altında saxlanılır. Ruslar izləməyi daha çox sevirlər, nəinki həbsləri.**

**"QTA"nın gecikmiş həbsi də məhz bununla əlaqədardır.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017

# Pedofillərin cəzası nə olmalıdır? - iki rəy

## Elçin Sadıqov: "Bütün hallarda ölüm cəzasının əleyhinəyəm"
## Yusif Bəkirov: "Onlara qarşı qanun sərtləşdirilməlidir"

**Son zamanlar uşaqlara, azyaşlılara qarşı seksual zorakılıq hadisələrinin sayı artıb. Naxçıvanda 4 yaşlı uşağın zorlanması, bundan bir müddət əvvəl ögey ataları tərəfindən zorlanan 3 azyaşlı uşaq sürücü tərəfindən zorlanan 7 yaşlı qız və s. kimi xəbərlər artıq həyəcan siqnalı çalmağa vadar edir.**

Dünya ölkələrində qanunlar bu cür insanlıqdan çıxmış pedofillərə qarşı xüsusi sərtliklə yanaşır. Bir sıra ölkələrdə belələri 20 il azadlıqdan məhrum edilir, ya da xədim edilir. Azərbaycanda isə onlar yalnızca azadlıqdan məhrum edilir. Artıq bir çox tanınmış ictimai şəxslər ölkəmizdə ölüm hökmünün bərpasını və bu cür insanlara qarşı tətbiq edilməsini tələb edirlər.

Bəs pedofillərə qarşı hansı sərt cəza tətbiq edilməlidir ki, belə hallar olmasın və ya heç olmasa, azalsın? Qanuna bununla bağlı bir dəyişiklik edilməlidirmi?






**Hüquqşünas Elçin Sadıqov bizimlə söhbətdə bütün hallarda ölüm cəzasının qaytarılmasının əleyhinə olduğunu bildirdi:** "Azərbaycan qanunvericiliyində 14 yaşına qədər şəxslərlə cinsi əlaqədə olmaq, zorlama və ya seksual xarakterli hərəkətlər zorakılıq hərəkətləri kimi qiymətləndirilir. Hətta qarşı tərəfin razılığı olsa belə, bu, seksual xarakterli zorakılıq hərəkəti hesab olunur. 14-16 yaş arası şəxslərlə cinsi əlaqədə olmaq 16 yaşına çatmayan şəxslərlə cinsi əlaqədə olma kimi tövsif olunur. Onun da cəzası o qədər ağır deyil. Hesab edirəm ki, 14 yaşdan 16 yaşa qədər şəxslərlə cinsi əlaqədə olanlara qarşı cəzanın sərtləşdirilməsi erkən evliliklərin qarşısının alınması baxımından böyük əhəmiyyət kəsb edə bilər. Mən bütün hallarda ölüm cəzasının qaytarılmasının əleyhinəyəm. Ona görə ki, insanlara islah olunma şansı verilməlidir. Bu, insan haqlarının təmin olunmasına ziddir. Bütün insanlara nə vaxtsa, özünün səhvini başa düşmək, səhvini anlamaq üçün şans verilməlidir".

**E.Sadıqov Naxçıvanda baş vermiş son hadisə ilə bağlı bu əməli törədənin daha ağır cəza alacağını düşündüyünü dedi:** "Bu hal Cinayət Məcəlləsinin 149 və yaxud da 150-ci maddəsi ilə tövsif olunur ki, orada da 15 ilədək azadlıqdan məhrum etmə cəzası var. Uşağın vəfat etməsini də nəzərə aldıqda, onun cəzasının kifayət qədər ağır olacağını düşünürəm. Azərbaycanda 2006-cı ildə də oxşar hadisə olmuşdu. 22 yaşlı gənc 4 yaşlı qızı zorlamışdı və qız vəfat etmişdi. Həmin şəxsə qarşı məhkəmə ömürlük azadlıqdan məhrum etmə cəzası təyin etdi".

**Uşaq Hüquqlarını Müdafiə Liqasının rəhbəri Yusif Bəkirov pedofillərə qarşı cəzanın sərtləşdirilməsinin tərəfdarı olduğunu dedi:** "Bu, böyük və dəhşətli bir cinayətdir. Bu cinayətin qarşısını alacaq qanunlar sərt olmalıdır. Bu da beynəlxalq qanunlara uyğun olmalıdır. Bu cür insanlara 3 il cəza çox azdır. Onlar azadlığa çıxandan sonra yenidən eyni hərəkəti edə bilər. Amerikada bir nəfər pişiyi kəsdiyi üçün ona 20 il azadlıqdan məhrum etmə cəzası verilmişdi. Pedofillərə qarşı qanun sərtləşdirilməli və bu məsələyə ciddi yanaşılmalıdır. Rusiyanın qanunlarını götürüb Azərbaycanda şərh etməməlidirlər. Bu cür əməl törədənlərin hamısına bir maddə üzərində gedilməməlidir. Bu qanun sərt olsa, biz uşaqlarımızı müəyyən müddətdə də olsa, müdafiə edə biləcəyik. Pedofilə 3 il cəza veriləcəksə, bu çıxdıqdan sonra yenə öz işi ilə məşğul olacaqsa, bu cəzanın mahiyyəti nədən ibarət olur ki?!"

❑ **Günel MANAFLI**

# 80 yaşlı qadının kredit borcu ilə gələn əcəli

## Məhkəməyə gələn ahıl qadının yıxılıb ölməsinə görə kimlər məsuliyyət daşıyır?

**Cəlilabadda bank borcuna görə məhkəməyə çağırılan 80 yaşlı qadın elə məhkəmə binasının pilləkənlərindən yıxılaraq ölüb. Hadisə Cəlilabad Rayon Məhkəməsinin həyətində baş verib.**

Belə ki, rayonun Əliqasımlı kənd sakini 1937-ci il təvəllüdlü Şükufə Aslanova kredit borcuna görə məhkəməyə dəvət edilib. Məhkəmədən çıxarkən Ş. Aslanovanın ayağı pilləkənə ilişib və o yıxılıb. Ağır kəllə-beyin travması alan Ş. Aslanova Cəlilabad Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib. Həkimlərin səyinə baxmayaraq yaralı elə oradaca dünyasını dəyişib.

Bu hadisə bir çox iqtisadi və hüquqi sualları ortaya çıxarıb. Bank ödəmə qabiliyyəti olmayan 80 yaşlı qadına nə üçün kredit verir? Nə üçün sonradan onu məhkəmə qapılarında süründürür? Bu, bank borcu olanların həyatını itirməsi və ya özünə qəsd etməsi ilə bağlı birinci fakt deyil. Bu məsələ artıq o həddə çatıb ki, can alır...

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan hüquqşünas, iqtisadçı ekspert Əkrəm Həsənov mövcud şərtlər daxilində bankların bu tipli yaşlı vətəndaşlara kredit verməsinin qanunvericilik baxımından doğru olmadığını diqqətə çatdırdı:** "Ümumən hər bir kəsə yaşından asılı olmayaraq kredit verilə bilər. Amma bu zaman bank mütləq həmin şəxsin rəsmi gəlirini təsdiqləyən sənədi tələb etməlidir. Sözügedən halda bu yəqin ki, pensiya olub. Mərhumun pensiyası da olmayıbsa, deməli, bank qanunvericiliyin tələbini pozub, yəni gəliri olmayan şəxsə kredit verib. Amma bu o demək deyil ki, bank belə krediti gəliri olmayan borcludan tələb edə bilməz. Bilər, çünki ola bilər ki, həmin şəxsin hər hansı əmlakı var və kredit onun hesabına ödənilə bilər. Bankın qanunvericiliyi pozmasına görə isə onu Maliyyə Bazarlarına Nəzarət Palatası cəzalandırmalıdır. Yeri gəlmişkən, həmin Palata tələb edir ki, banklar krediti yalnız o şərtlə verə bilər ki, borclunun aylıq kredit ödənişindən sonra aylıq gəliri yaşayış minimumunun üçqat həddində özündə qalmış olsun. Belə ki, məsələn, hazırda pensiyaçılar üçün aylıq yaşayış minimumu 130, 2 manatdır. Üçqat məbləğ 390,6 manat edir. Yəni mərhumun pensiyası gərək bu məbləğdən yüksək olardı ki, ona kredit verilərdi. Yəqin ki, pensiyası az olub. Bu sahədəki təcrübəmə əsaslanaraq deyirəm ki, böyük ehtimalla mərhumun adına da əmlak olmayıb. Bu isə o deməkdir ki, o, əslində müflis idi".



**Hüquqşünas vurğuladı ki, bankın müflis şəxsdən borcun ödənilməsini tələb etməsi səmərəsizdir:** "Həmin kredit ümidsizdir və silinməlidir. Lakin demək olmaz ki, bank belə krediti tələb etməklə qanunu pozub. Xeyr, tələb edə bilərdi. Bu baxımdan, məhkəmədə xanımın yıxılıb ölməsi bədbəxt hadisədir və burada heç kəsin hüquqi məsuliyyətindən söhbət gedə bilməz. Sadəcə, bankın mənəvi məsuliyyəti var. Müflis şəxsdən krediti niyə tələb edirdi? Bu məhkəməyə nə ehtiyac var idi?"

**Ekspertin sözlərinə görə, bütövlükdə hazırda ölkədəki bank borcluları olan vətəndaşların əksəriyyəti müflisdir:** "Onlar kreditlərini ödəyə bilmir. Qanunvericiliyimiz onlara imkan verir ki, məhkəməyə müraciət edib özlərini müflis elan etsinlər. Amma bu imkandan çox az adam istifadə edir. İstifadə edənlərə qarşı da məhkəmələr ədalətsiz mövqe nümayiş etdirir: süründürməçilik edirlər və s. Amma hər bir halda bu problemin yeganə həlli müflis şəxslərin məhkəməyə müraciət edib özlərini müflis elan etdirməsidir. Əvvəl-axır məhkəmələrimiz bu hüququ tanımağa məcbur olacaq. Təəssüf ki, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi bu məsələdə passivdir və vətəndaşları müdafiə etmir. Nəticədə intihar halları, məhkəmə binalarında borcluların ölməsi, borcluların xəstəlik tapması, ailələrin dağılması, uşaqların psixoloji gərginlik şəraitində böyüməsi halları artır. Buna görə də dövlət bu məsələyə müdaxilə etməlidir. Amma hər bir halda vətəndaşlar da haqlarını tələb etməlidir. Müflislik hüququ da belə haqlardan biridir. Hamı başa düşməlidir ki, göydən 3 alma düşməyəcək, özümüz özümüzü müdafiə etməliyik, fəal olmalıyıq".

❑ **Nərgiz LİFTİYEVA**



## Azərbaycanda kuryoz hadisə: məhkəmə ölüyə pul cəzası kəsdi

**Astara rayonunda məhkəmə bir il öncə ölən şəxsə pul cəzası kəsib.**

Milli.az lent.az-a istinadən xəbər verir ki, Astara məhkəməsində pul cəzası kəsilən mərhum Rahim Baladadaş oğlu İmanov ötən il vəfat edib.

Astaranın Şiyəkəran kənd sakini 49 yaşlı R.İmanov balıq ovlayarkən tilovun yüksək gərginlikli elektrik xəttinə toxunması səbəbindən cərəyan vurması nəticəsində ölüb.

R.İmanov bu hadisədən bir qədər əvvəl qardaşı Məmməd Baladadaş oğlu İmanova "Əmrahbank"dan kredit götürən zaman zamin durubmuş.

Kredit götürən şəxs ödəniş etmədiyindən bank məhkəməyə müraciət edib.

R.İmanovun yaxınlarının verdiyi məlumata görə, Astara məhkəməsində hakim Mübariz Məmmədovun sədrliyi ilə keçirilən iclasda mərhuma 343 manat pul cəzası kəsilib.

YENİ MÜSAVAT
N 163 (6777) 5 avqust 2017

# Fransada təhsìl aldı, Bakıda qatìl oldu- 17 ìllìk həbs cəzası





**Fransada təhsil alıb Bakıda qətl törədən şəxsə hökm oxunub. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində adam öldürməkdə, dələduzluqda, soyğunçuluqda və əmlakı qəsdən məhv etməkdə təqsirləndirilən Zakir Məmmədovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb.**

Hakim Eynulla Vəliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən Z.Məmmədov 17 il müddətinə azadlıqdan məhrum edilib.

İttihama görə, Z.Məmmədov Bakıda apteklərdən birinə daxil olaraq Tərlan Aslanovun etibarından sui-istifadə edərək mobil telefonunu danışmaq adı ilə alaraq qaytarmayıb və aptekdən çıxaraq oradan uzaqlaşıb.

Bundan başqa, o, Firudun Hüseynovdan su qızdırıcısı almaq üçün razılaşıblar. Evdə qızdırıcını alan zaman aralarında mübahisə yaranıb. Bu zaman Z.Məmmədov qızdırıcının üstündəki dəmir parçasını götürərək F.Hüseynovun başından bir neçə zərbə vurub. F.Hüseynov oradaca ölüb. Z.Məmmədov onun əlindən yerə düşən 100 manatı götürərək evdən çıxıb.

Z.Məmmədov digər cinayət əməlində Bakı sakini Anar Kərimovun 1200 manatlıq əmlakını soyğunçuluq yolu ilə talayıb.

Qeyd edək ki, qətli törədən 1984-cü il təvəllüdlü Zakir Məmmədov Fransanın Strasburq şəhərində ali təhsil alıb. Onun bir övladı var.

❑ İ.MURADOV

## Qazaxıstanda azərbaycanlı qətlə yetirildi

**Azərbaycanlı Qazaxıstanda güllələnərək qətlə yetirilib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, Goranboyun Tatarlı kəndindən olan, bir neçə il əvvəl Qazaxıstana köçüb orada yaşayan 1986-cı il təvəllüdlü Rüstəmov Ruslan Edilxan oğlu güllələnərək öldürülüb.**

Onun meyiti dəfn olunmaq üçün doğulduğu Tatarlı kəndinə gətirilib.

## Hüquqşünas polis qardaşını pult üstündə bıçaqlayıb öldürdü

**Dünən axşam saatlarında Bakının Binəqədi rayonunda - 9-cu mikrorayon, Mir Cəlal küçəsi 85-də yerləşən binada qardaşın qardaşını bıçaqlayaraq öldürməsi hadisəsi ilə bağlı bəzi məqamlar üzə çıxıb.**

Lent.az-ın əldə etdiyi məlumata görə, hadisəni törədən 1990-cı il təvəllüdlü Əliyev Əli Ramazan oğlu cüdoçudur. Onun bıçaqlayaraq öldürdüyü qardaşı, 1983-cü ildə anadan olmuş Əliyev Murad Ramazan oğlu isə konq-fu idman növü üzrə peşəkarlaşıbmış.

Bildirilir ki, qardaşı tərəfindən qətlə yetirilən Murad Əliyev Çevik Polis Alayında polis serjantı kimi fəaliyyət göstərirmiş. Hadisəni törədən 27 yaşlı Əli isə bir müddət əvvəl Moskva Dövlət Universitetinin Hüquq fakültəsini bitirib.

Hadisənin başvermə səbəbinə gəlincə, olay vaxtı evdə onların anası olub. Qardaşlar anaları eyvanda olarkən dalaşmağa başlayıblar. Qadın deyib ki, onlar televizorun pultu üstündə mübahisə ediblər və daha sonra əlbəyaxa dava yaranıb. Bu zaman əsəblərinə hakim ola bilməyən Əli mətbəx bıçağını götürərək qardaşına hücum edib və çoxsaylı zərbələr endirərək onu öldürüb. 27 yaşlı oğlan daha sonra evdən qaçıb.

## Azərbaycanda hava kəskin istiləşəcək - xəbərdarlıq

**Avqustun 10-dək Azərbaycanda havaların kəskin istiləşəcəyi ilə bağlı xəbərdarlıq edilib. Ekologiya və Təbii Sərvətlər Nazirliyindən APA-ya verilən xəbərə görə, Bakıda və Abşeron yarımadasında avqustun 5-dən birinci ongünlüyün sonunadək havanın maksimal temperaturunun 35-39°, bəzi günlərdə 41° isti olacağı gözlənilir.**

Avqustun 05-dən birinci ongünlüyün sonunadək ölkə ərazisində hava şəraitinin isti olacağı, havanın maksimal temperaturunun 35-40°, Naxçıvan MR-də və Mərkəzi-Aran rayonlarında bəzi günlərdə 43°, dağlıq rayonlarda isə 29-34° isti olacağı gözlənilir.

Tibbi-meteoroloji xəbərdarlıqa gəlincə, avqustun 5-dən 10-dək Abşeron yarımadasında zəif küləklərin üstünlüyü, bəzi saatlarda durğun və bürkülü hava şəraiti fonunda çox isti temperatur diskomfortu gözlənilir ki, bu da əksər əhali üçün əlverişsiz, meteohəssas insanlar üçün isə çox əlverişsizdir. Gündüz saatlarında uzun müddət açıq havada olmaq məsləhət deyil.

## Tanışını bıçaqlayan şəxs məhkəmə zalında qandallandı

**Mübahisə etdiyi şəxsi bıçaqlamaqda təqsirləndirilən şəxs məhkəmə zalında həbs edilib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində qəsdən sağlamlığa ağır zərər vurmada təqsirləndirilən Əliyev Nicat Məharət oğlunun cinayət işi üztə məhkəmə prosesi başa çatıb.

Hakim Şəkər Məmmədovanın sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən N.Əliyev 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Onun barəsində olan polis nəzarətinə verilmə qətimkan tədbiri dəyişdirilib və məhkəmə zalında həbs edilib.

N.Əliyev Cinayət Məcəlləsinin 126.1-ci (qəsdən sağlamlığa ağır zərər vurma) maddəsi ilə təqsirli bilinir.

Məlumata görə, N.Əliyev mübahisə etdiyi tanışını bıçaqlamaqda təqsirləndirilir.

❑ İ.MURADOV

## Şirkətdə aşkarlanan qanunsuzluqlarla əlaqədar cinayət işi başlanıb

**Kənd təsərrüfatı sahəsində ixtisaslaşmış şirkətin vəzifəli şəxslərinin fəaliyyətində aşkar edilmiş qanun pozuntuları barədə Kənd Təsərrüfatı Nazirliyindən daxil olmuş material Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.**

Baş Prokurorluğun mətbuat xidmətindən musavat.com-a verilən məlumata görə, müəyyən edilib ki, "Biləsuvar Kənd Təsərrüfatı İstehsalat Müəssisəsi" MMC-də xırda buynuzlu heyvanların məcburi kəsiminə, əmtəəlik satışına və əmək haqqı əvəzinə verilmiş xırda buynuzlu heyvanlara görə ümumilikdə müəssisəyə 19 min 765 manat məbləğində ziyan dəyməklə balans dəyəri 163 min 388 manat olan 1584 baş xırda buynuzlu heyvanın çatışmazlığı aşkar olunub, habelə ilkin balans dəyəri 25 min 655 manat olan 3217 baş doğulacaq xırda buynuzlu heyvan uçotdan gizlədilib.

Həmin qanunsuz hərəkətlərin qeyd edilən cəmiyyətin vəzifəli şəxsləri tərəfindən öz qulluq mövqelərindən istifadə etməklə törədilməsində şübhələr üçün əsaslar yarandığından fakta görə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Hazırda cinayət işi üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri, habelə vurulmuş ziyanın ödənilməsinin təmin edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

**Elan**

**Salmanov İltifat Əziz oğlunun adına verilmiş Bakı şəhəri, Hüseyn Seyidzadə küçəsi, ev 16A, mənzil 24 ünvanına məxsus "Daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı" sənədi itdiyi üçün etibarsız sayılır.**

## Oğlunun toyuna hazırlaşan kişini "tok" vurub öldürdü

**56 yaşlı kişini cərəyan vuraraq öldürüb. ARB 24 xəbər verir ki, hadisə Goranboyun Nizami kəndində baş verib. Kənd sakini Rasim Cəfərov evində iş görən zaman elektrik cərəyanı onu vurub. Ətrafdakılar onu xəstəxanaya çatdırmağa cəhd etsələr də, kənd sakini yolda dünyasını dəyişib.**

Övladına toy etməyə hazırlaşan mərhum yeni evdə elektirik xətlərini yeniləyirmiş.

Biləsuvar sakini də bədbəxt hadisə nəticəsində ölüb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, avqustun 3-də Xəzər rayonunun Şağan qəsəbəsində evlərdən birindəki tikintidə fəhlə işləyən Biləsuvar rayon sakini Ceyhun Əliyev elektrik cərəyanı vurması nəticəsində ölüb.

## Paytaxta qonaq gələn 22 yaşlı gənc dənizdə batdı

**22 yaşlı Şirvan sakini dənizdə batıb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, avqustun 3-də Şirvan sakini, 1995-ci il təvəllüdlü Məmmədov Məhəmməd Allahşükür oğlu dənizdə çimərkən boğulub.**

Bakı şəhərində qonaq olan gəncin dənizin nəzarət olunmayan sahilində çimərkən batdığı bildirilir. Onun meyiti Şirvana aparılaraq dəfn olunub.

## Ata və oğlu avtoqəzada öldü

**Bakı-Quba yolunda baş verən qəzada ata və oğul ölüb. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi xəbərə görə, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı-Quba magistral avtomobil yolunun 20-cı km-də "Qazel" markalı yük avtomobilinin "Mercedes" markalı yük avtomobili ilə toqquşması nəticəsində yol nəqliyyat hadisəsinin baş verməsi barədə məlumat daxil olub.**

Dərhal nazirliyin Sumqayıt Regional Mərkəzinin xilasediciləri hadisə yerinə cəlb olunaraq "Qazel" markalı yük avtomobilində sıxılmış vəziyyətdə qalmış 1971-ci il təvəllüdlü İsmixanov Etibar Rizvan oğlunun və 1999-cu il təvəllüdlü İsmixanov Araz Etibar oğlunun cəsədlərini çıxararaq aidiyyəti üzrə təhvil veribl ər.

## Bakıda küçədən meyit tapıldı

**Bakı şəhərində küçədən meyit tapılıb. APA-nın məlumatına görə, paytaxtın Pirallahı rayonu, 29-cu məhəllə adlanan ərazidə üzərində zorakılıq əlamətləri olmayan kişi meyiti aşkar edilib. Araşdırmalar nəticəsində onun rayon sakini, 1954-cü il təvəllüdlü Tofiq Ramazan oğlu Lətifov olduğu müəyyənləşdirilib.**

Faktla bağlı araşdırma aparılır.

## «İnterpol»un axtardığı azərbaycanlı Moldovada tutularaq ölkəyə gətirildi

**Azərbaycan tərəfindən beynəlxalq axtarışa verilən şəxs Moldovada tutulub.**

APA-nın məlumatına görə, 2016-cı ildən Azərbaycan Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə axtarışda olan Rüstəm Tofiq oğlu Əliyev Moldovada saxlanılaraq Azərbaycana ekstradisiya edilib.

Faktla bağlı araşdırma aparılır.

# Onların səhvi güldürmür, öldürür...

## Dünya boyunca ayaq əvəzinə damar kəsən, xəstəyə yanlış qan vuran həkimlər

**Azərbaycanda, eləcə də dünyada həkim səhvləri ucbatından minlərlə insan dünyasını dəyişir. Bu, bir faktdır. Hansı ölkə olmasından asılı olmayaraq, həkimin bəzən xırda bir diqqətsizliyi insanların ölümünə, şikəst qalmasına, ya da ömür boyu travma almasına səbəb olur. Və çox maraqlıdır ki, bu tip səhvlərin qurbanı təkcə kasıb təbəqə olmur. Bəzən milyonları başından aşan şəxslər də həkimlərin yanlışlığı və ya səhlənkarlığı ucbatından həyatını itirir. Bugünlərdə redaksiyamıza şikayət edən paytaxt sakini Rzayev Allahverdi də klinikalardan birində yanlış əməliyyat olunduğunu deyib...**

Bu yaxınlarda dünyasını dəyişən mərhum energetika naziri Natiq Əliyevin ölümü ilə bağlı onun milyarder dostu Fərhad Əhmədov şok detallar açıqlayıb. Milyarder nazirin həkim səhvi üzündən öldüyünü bildirib. Bununla bağlı sosial şəbəkədəki səhifəsində yazan F.Əhmədov bir sıra maraqlı faktlar açıqlayıb. O bildirib ki, insan, xüsusilə də ictimai şəxsin ölümündən sonra həkimlər adətən öz günahkarlıqlarına dair hər hansı şübhəni bütün yollarla istisna etməyə çalışırlar.

### Onlar əməliyyat masasında oyanıb... dəhşətə gəliblər

**Keçək dünya üzrə nümunələrə. Amerika Birləşmiş Ştatlarının Virciniya ştatında 1998-ci ildə sağ gözü çıxarılan adam yaşadığı dəhşəti belə dilə gətirib.** "Bütün bədənim tərpənməz bir halda idi. Nə qədər eləsəm də tərpənə bilmirdim. Bədənim iflic olmuşdu. Həkimlərin sağ gözümü necə oyduğunu açıq-aydın hiss edirdim. Dua ilə bərabər, bağırmağa, ağlamağa, onlara qarşı lənət oxumağa davam edirdim. Lakin içimdə yaşadığım çığırtıları heç kim eşitmirdi".

Əməliyyatdan illər keçsə də Karol Vehier adlı qadın indiyə qədə yuxu dərmanı olmadan yata bilmir. Baş verənlər onun psixikasını ciddi dərəcədə sarsıtdığından illərlə müalicə almaq məcburiyyətində qalıb.

Kanzaslı Tod Vitlok əl və ayaqlarında əməliyyat edilərkən qəflətən oyanıb. Lakin həkimlər bunun fərqində olmadan əməliyyata davam edib.

Erin Kuk adlı qadın yumurtalıqlarını əməliyyat etdirərkən əməliyyat masasında oyanıb. Əməliyyatın üstündən illər keçsə də Kuk hələ də psixoloji reabilitasiya keçir.

Relig Sizmor adlı gənc qarın ağrıları ilə həkimə müraciət edib. Gənc təcili olaraq əməliyyat edilir. Lakin əməliyyat əsnasında şanssızlıqdan oyanır. Daxili orqanlarına müdaxilə edildikdən sonra həkimlər səhv etdiklərini anlayırlar. Ona yenidən narkoz verilir. Əməliyyat bitdikdən sonra oğlana yuxu gördüyünü deyirlər. Yaşadıqlarının yuxu, yoxsa real olduğunu analaya bilməyən gənc 3 həftə sonra intihar edir.

Azərbaycanda həkim səhlənkarlığı, savadsızlığı üzündən daha bir faciə baş verib. Ağcabədi rayon Mərkəzi Xəstəxanasının cərrahı Çingiz Həsənov ayağı qırılan xəstəni əməliyyat edərkən səhvən arterial damarı kəsib.

Qanaxma nəticəsində rayonun Qiyaməddinli kənd sakini, 59 yaşlı Zahid Quliyev həyatını itirib.

**Mərhumun qardaşı Əmrah Quliyev bakıpost.az-a deyib ki, ayağı sınana qədər Z.Quliyevin heç bir xəstəliyi olmayıb. Həyətlərində təsərrüfat işləri ilə məşğul olduğu vaxtda hündürlükdən yıxılıb və ayağı iki yerdən sınıb:** "Hadisə baş verən gün - ayın 21-də dərhal qardaşımı xəstəxanaya çatdırdıq. Çingiz həkim baxıb dedi ki, qorxulu heç nə yoxdur. İki gün sonra isə əməliyyata ehtiyacın olduğunu bildirdi. Həyatı üçün təhlükə olub-olmadığını soruşanda güldü və dedi ki siqaret çəkmir, araq içmir, sapsağlam adamdı, nə problem olacaq ki? Xırda əməliyyat olacaq, mil qoyacağıq. Əməliyyata girəndən təxminən iki saat sonra çıxıb təcili 150 manat pul lazım olduğunu bildirdi. Səbəbini soruşanda Bərdədən təcili həkim briqadası çağırdığını dedi. Razılaşdıq. Bərdədən həkimlər gəldi, amma nəticə olmadı. Sən demə, onlar gələnə kimi qardaşım keçinibmiş".

**Ə.Quliyev bildirib ki, həkim əməliyyat otağından çıxanda üst-başı tamam qan imiş:** "Həkim məndən pul almağa çıxanda qanın içindəydi. Sonra əməliyyat otağına girəndə gördüm ki, otaq qan gölüdür. Sən demə, qardaşımın arterial damarını kəsib, qanı saxlaya bilməyib".

Əlavə edib ki, Ş.Həsənovun ölümünü onlardan 7 saat gizlədiblər. Məsələ bilindikdən sonra həkimlə mərhumun ailə üzvləri arasında dava düşüb. Hadisə yerinə polis cəlb edilib.

### +II qan qrupu əvəzinə -II qan qrupu köçürülüb və...

**Bakıdakı Respublika Perinetal Mərkəzində müalicə olunan hamilə qadına səhv qan köçürülüb. Xəstəxananın doğum şöbəsinə yerləşdirilən xəstə Sevinc Məmmədlinin atası Məhəbbət Məmmədov mediaya açıqlamasında bildirib ki, qızı Respublika Perinetal Mərkəzində qeysəriyyə əməliyyatı olunub. Atanın dediyinə görə, həkimlər qızına +II yox, səhvən -II qan köçürüb və onun vəziyyəti ağırlaşıb:** "Biz o xəstəxanaya 1000 manat pul ödədik. Əməliyyat olan gün axşamtərəfi getdim, qızıma baş çəkəm, amma onu meyit vəziyyətində gördüm. Onda daxili qanaxma baş verib, həkim də orada olmayıb. Tibb bacısı həkimlə əlaqə saxlayıb və qanaxma haqda ona məlumat verib. Soruşub ki, xəstəyə qan vursun, ya yox? Həkim də deyib ki, qan vursun. Qızımın qan qrupu +II RH ola-ola, ona -II RH rezuslu qan vurublar. Həmin qan da qızımın daxili orqanlarını zədələyib. Daxildəki bütün kapilyar damarları partlayıb. Mən 8 gün həmin xəstəxananın qarşısında zülm çəkdim. Daha sonra həmin xəstəxananın baş həkimi vasitəsilə qızımı Baku Medical Plaza klinikasına köçürdük".



27 noyabr 2016-cı ildə isə Azərbaycanda dünyaya göz açmış körpə dünya işığından məhrum qalıb. Valideynləri buna səbəb kimi doğuş həkiminin səhlənkarlığını göstərirlər. Çünki uşağın aparıldığı həkimlər gözün korluğunu doğuş zamanı aldığı travma ilə əlaqələndirirlər. Maraqlısı budur ki, uşağın valideynləri doğuşdan sonra körpənin gözündə qızartı hiss ediblər və bu barədə doğuş həkiminə məlumat veriblər. Həkim isə bunun adi infeksiya olduğunu və narahatlığa əsas olmadığını deyib.

Uşağın anası Cəlilabad rayon sakini Şərqiyyə Vəliyevanın doğuşu Sabunçu rayonunda yerləşən 3 saylı şəhər klinikasında baş tutub.

### Qanun çox humanistdir...

Cinayət varsa, cəzası da var. Cinayət Məcəlləsinin 131-ci maddəsinin 1-ci bəndinə görə ehtiyatsızlıqdan sağlamlığa az ağır zərbə vurma halı minimum əmək haqqı məbləğinin üç yüz mislinədək miqdarda cərimə və ya 1 ilədək müddətə islah işləri və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. 131-ci maddənin 2-ci bəndində isə ehtiyatsızlıqdan sağlamlığa ağır zərbə vurma halında minimum əmək haqqı məbləğinin 500 mislinədək miqdarda cərimə və ya 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəza nəzərdə tutulub. Əgər həkim xətası nəticəsində xəstə həyatını itiribsə, Cinayət Məcəlləsinin 124-cü maddəsinə əsasən, ehtiyatsızlıqdan adam öldürmə halları üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Cinayət Məcəlləsinin 314-cü maddəsinə görə, səhlənkarlıq nəticəsində həkimin vicdansız və laqeyd münasibəti üzündən öz xidməti vəzifəsini lazımi qədər yerinə yetirməməsi sonucda vətəndaşların sağlamlıq hüquqlarına və qanun mənafelərinə zərər vurduqda minimum əmək haqqının 500 mislindən 1000 mislinədək və ya 2 il islah işləri, 6 ay azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

### Almanlar da səhv edir, amma necə...?

Almaniyanın Hamburq şəhərində təkcə 2012-ci ildə 449 xəstə həkim səhvinə görə şikayət edib. Hamburq Həkimlər Birliyinin araşdırmasına görə, yekunlaşan məhkəmə proseslərinin təxminən 23 faizində həkim səhvi təsdiqlənib və zərərə uğrayan xəstələrə təzminat ödənib. Araşdırmaya görə, alman həkimlər daha çox diz müayinələrində və qol, ayaq biləyi qırıqlarının müalicəsində səhvə yol verirlər. Doğuş zamanı yol verilən səhvlər isə araşdırmada 3-cü sırada yer alıb. Həkim səhvi ucbatından səhhətinin pisləşdiyini düşünənlər üçün Hamburqda araşdırma mərkəzləri var. Bu mərkəzlərdə bitərəf mütəxəssislər xəstəni və xəstəyə tətbiq edilən müalicələr yenidən araşdıraraq məhkəməsiz anlaşma yolunu tuturlar.

Və bu ölkədə təkcə 2010-cu ildə həkim səhvi və tibbi məhsulların çatışmazlığı ucbatından ən azı 1712 nəfər həyatını itirib. Xüsusən də həkimlərin səhvləri ucbatından dünyasını dəyişən insanların sayında xeyli artım var. 2009-cu ildə bu rəqəm 551 nəfər idisə, 2010-cu ildə 944-ə qədər artıb. Almaniyada daha çox rast gəlinən ölüm səbəbləri arasında yetərsiz dezinfeksiya, köçürülən orqanların xəstənin bədəni tərəfindən qəbul edilməməsi və protez qoyulması zamanı üzə çıxan problemlərdir.

Harvard Universitetinin professoru Layza Yezoni isə 2 min həkim arasında apardığı araşdırma nəticəsində üzə çıxarıb ki, onların 34 faizi ciddi həkim səhvləri barədə pasiyentə xəbər verməmək lazım gəldiyini düşünür. Nəticədə həkimlər ötən il ərzində törətdikləri səhvlərin 20 faizini gizlədiblər.

Alimlərin dediklərinə görə, həkimlərin ən azı 10 faizi farmasevtik şirkətlərlə anlaşmaları olduqlarını deməyiblər.

Həkimlərin 55 faizi isə xəstənin real vəziyyəti barədə ona dəqiq məlumat verməyərək pasiyentə "ürək-dirək" verməyə çalışıblar.

"Belə çıxır ki, həkimlər pasiyenti bədbinliyə düçar etməmək və ya həkim lisenziyasını itirməmək üçün həmişə yalan danışırlar", - Yezoni deyib.

Ekspertlər pasiyentlərə duruma nəzarət etməyi məsləhət görürlər.

### Amerikalı həkimlər ildə nə qədər adamı öldürür?

Aparılan tədqiqatlar nəticəsində məlum olub ki, ABŞ-da hər il tibbi səhvlərə görə 98 min insan ölür. Ekspertlərin hesablamalarına görə, dünyada 1 milyon 400 mindən artıq insan stasionarda qazanılmış infeksiyadan əziyyət çəkir. Böyük Britaniya Milli Agentliyinin dərc edilmiş məruzəsinə müvafiq olaraq 2005-ci ildə Britaniya həkim və tibb heyətinin buraxdığı səhvlər nəticəsində 527 min xəstə zərər çəkib. Rusiya Tibb Assosiasiyasının Sankt-Peterburq şöbəsinin məlumatlarına görə, müalicə nöqsanları səbəbi ilə xəstələr tərəfindən tibb müəssisələrinə qarşı məhkəmə iddialarının sayı 1997-ci ildən 2001-ci ilədək iki dəfə artıb. Ekspertlərin hesablamalarına görə, 2 min halda tibb işçilərinin səriştəsizliyi və ya ehtiyatsızlığı xəstələrin ölümünə səbəb olub.

**Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT

Son səhifə

N 163 (6777) 5 avqust 2017



## Hipermarketdə yaşayan adam

Miçiqan ştatının sakini Valmart hipermarketində iki sutka keçirib. Bu barədə lenta.ru saytı xəbər verib. Polislər adı açıqlanmayan 45 yaşlı qadını mağazanın arxa hissəsində qulağında qulaqcıqla musiqi dinləyən yerdə tapıblar. Mağazanın meneceri bildirib ki, qadından bir neçə dəfə məkanı tərk etməsini xahiş etsə də, sonuncu buna məhəl qoymayıb. Bundan sonra isə onlar polisə müraciət ediblər. Hadisə yerinə gələn polislər isə bildiriblər ki, qadın öncə hər şeyi inkar edib, amma sonra boynuna alıb ki, bir neçə gün hipermarketdə yaşayıb. Mağazanın gizli kamera qeydlərinə görə, qadın içəridə 4 sutka qalıb. Qadın danışıb ki, birgə yaşadığı oğlu onu alkoqolluqda ittiham edəndən və vurandan sonra evi tərk edib. Polis isə onun mağazada qanunsuz yaşayışını anlayışla qarşılamayıb və ona qarşı cinayət işi açılıb. Qadının məhkəməsi 26 yanvarda olacaq. Həmin vaxta qədər harada yaşayacağı isə bilinmir. Polis həmçinin müəyyənləşdirib ki, hipermarketdə olduğu müddətdə qadın heç nə oğurlamayıb.

# Əgər kişi xəstələnirsə...

Aparılan son araşdırmalar zamanı məlum olub ki, soyuqdəymə və ya qrip olarkən kişilər qadınlara nisbətən daha çox əziyyət çəkirlər. İngiltərənin Darhem Universitetindən olan nevroloq Amanda Elison bildirir ki, kişilər simptomları şişirtmirlər, onlar həqiqətən də özlərini çox pis hiss edirlər. Sirr bədənin hərarəti də daxil olmaqla, bir çox göstəricilərin tarazlığına cavab verən beynin zonaları arasındakı fərqdədir. Belə ki, uşaq yaşlarında qadın və kişilərdə beyin zonaları eyni ölçüdə olur. Lakin yeniyetmə yaşlarında onlar oğlanlarda testosteronun təsiri nəticəsində böyüyür.



Söhbət nüvələrin preoptik zonasından gedir. İnfeksiya orqanizmə daxil olduqda bədən ondan xilas olmaq üçün hərarəti artırır. Hərarətin qalxması ilə isə məhz nüvə məşğul olur. Kişilərdə zonaların həcminin böyüməsi səbəbindən temperatur reseptorları daha çox olur. Ona görə də kişilərə hərarətin qalxmasına tab gətirmək daha çətindir. Bunu beynin çəkilmiş şəkilləri də sübut edir.

# Bu da qəribə xəstəlik - üzü dayanmadan şişir

Herediter anjioödem xəstəliyi 20 yaşlı Lauren Farley-Smith adlı qızın həyatını kabusa çevirib. Belə ki, bu xəstəlik qızın üzünün normal ölçüsündən iki dəfə artıq şişməsinə səbəb olub. "Daily Mail"də yayımlanan xəbərə görə, nadir görülən xəstəliyin ilk simptomları Laurenin ərgənlik dönəmində özünü göstərib. Qalıcı bir qan xəstəliyi olan herediter anjioödem bədəndəki şişkinliklərə, davam edən qusmalara və kəskin qarın ağrılarına səbəb olmaqla yanaşı, həyati təhlükə də daşıyır. Stres və narahatlıq xəstəliyin irəliləməsinə səbəb olduğu üçün gənc qız tez-tez meditasiya ilə məşğul olur və həkim köməyi alır. Yad insanların baxışları və rəyləri ucbatından depressiyaya girən, antidepresandan istifadə edən Lauren keçən il xəstəliyə məğlub olmayacağı ilə bağlı öz-özünə söz verdi və indi uşaqlıq xəyalı olan stüardessalığa hazırlaşır. Nadir görülən, qalıcı xəstəlik olan herediter anjioödem bədənin müxtəlif əzələlərində şişmələrə səbəb olur. Bəzi insanlarda bu şişkiklik hər ay baş tutsa da, bəzilərində bir neçə aydan bir, ya da ildə bir dəfə baş verir.





## Əgər həftədə 5 gün ət yesəniz...

Həftədə beş porsiyadan artıq emal edilmiş ət yeyən xüsusi genə malik insanlarda kolorektal xərçəng riski iki dəfə artıq olur. Kolorektal xərçəng dünya boyu ən çox yayılmış və ən çox ölümə səbəb olan xərçəng növüdür. Birləşmiş Ştatlar, Kanada, Avstraliya və Avropada 1800 insan üzərində 10 araşdırma aparılıb ki, bu da ət yeyən insanlarda nitratların artıq olduğunu göstərib. Qurudulmuş, hisə verilmiş, bişmiş və ya qablaşdırılmış ət məmulatlarının müalicəsi var. Amma alimlər bekon, vetçina, kolbasa, sosiska və paştet kimi məmulatları araşdırıblar.

Alimlər kolorektal xərşəngə tutulmuş 9 min insanın qanı ilə xəstə olmayan 9 min insanın qanlarındakı eyni genomu müqayisə edib. Kolorektal xərçəng 30 gen növünün birləşməsi ilə yaranan mürəkkəb bir xəstəlikdir. Tədqiqatların nəticələri bu genlərin iki variantına malik olan və hər gün emal edilmiş ət yeyən insanlarda kolorektal xərçəng riskinin yüksək olduğunu göstərib.




QOÇ - Yalnız sağlıq durumunuza diqqət ayırmalısınız. Yaxşı bilirsiniz ki, hirsli başda ağıl olmur. İndiki həssas məqamda isə ağılsızlıq heç kimə xeyir gətirmir. Qidanıza da fikir verin.

BUĞA - Hansısa gərginliyi gözləməyə dəyməz. Ən azından bu gün ağıllı və təmkinli olmağınız bütün prosesləri xeyrinizə döndərəcək. Ən böyük uğurlarınız fəaliyyət zəminində mümkündür.

ƏKİZLƏR - Ümumi süstlüyünüzü nəzərə alıb qızğın fəaliyyətə ara verin. Bunun əvəzində ailə üzvlərinizlə, sizə yaxın olan insanlarla birgə olmaq, köhnə qayğılardan bir qədər uzaqlaşmaq məsləhətdir.

XƏRÇƏNG - Əgər hər hansı mübahisəyə yol verməsəniz, qərəzli çıxışlar etməsəniz, ulduzlar sizi sevindirəcək. Hətta şəxsi büdcənizdə müəyyən artımlar da mümkündür. Riskli dəvətlərdən yayının.

ŞİR - Hiss olunur ki, gərgin bir ərəfə yaşamaqdasınız və bu, daxili gərginliyinizi artırıb. Odur ki, gün ərzində daha çox istirahətə yer ayırın. Ulduzlar sizə maddi dəstək verəcək.

QIZ - Təcrübəniz olmayan, başınız çıxmayan məsələlərə münasibət bildirməyin. Bu, sizi gözdən sala bilər. Yaxşı olar ki, əsas diqqətinizi son vaxtlar güclənən ağrılarınıza yönəldəsiniz.

TƏRƏZİ - Ünsiyyətdə olduğunuz hər kəsi ciddi şəkildə dinləyin, onların problemlərinə laqeyd qalmayın. Elə davranın ki, sizə etibar edən şəxslərin gözündən düşməyəsiniz. Uzaq səfərləri təxirə salın.

ƏQRƏB - Maraqlı sövdələşmələrdə iştirakınız gözlənilir. Hətta ola bilər ki, bu amil növbəti bir neçə ayın uğurlarını da artırsın. Amma bütün işgüzar görüşləri günün ikinci yarısına salmalısınız.

OXATAN - Münasibətlər zəminində yaranmış gərginliyi aradan qaldırmaq istəyirsinizsə, bu sətirləri oxuduğunuz andan hərəkətə keçin. Sonra gecikə bilərsiniz. Sevgiyə xüsusi həssaslıq göstərin.

OĞLAQ - Maliyyə uğurlarını nəzərə almasaq, ixtiyarınızda olan bu təqvimdən o qədər də razı qalmayacaqsınız. Buna baxmayaraq saat 14-17 arası yeni işlərin müzakirəsinə başlamaq olar.

SUTÖKƏN - İkitərəfli əməkdaşlıq zəminində uğurlarınız labüddür. Amma gərək daxili sabitliyinizi qoruyasınız ki, nəticə uğurlu olsun. Günün ikinci yarısında digər yeniliklər də olacaq.

BALIQLAR - Kənar məsləhətlərə ciddi şəkildə aludə olmayın. Amma bu, o demək deyil ki, kiminsə ədalətli qərarlarını tapdayasınız. Hər halda bu gün gələcək fəaliyyəti təyin etmək olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Turistlər adrenalin artırmaq üçün qandonduran hərəkət etdilər

Amerikanın Luiziana ştatının Nyu Orleans şəhərinə gələn turistlər bütün dünyanı şoka salıb. Onlar bir bataqlıqdakı donuzları izləmək və həyəcan yaşamaq adına sonuncuları canından edib. Belə ki, turistlər əvvəlcə maraqla donuz sürüsünü izləyiblər. Amma daha sonra bu maraq bəs etməyib və həyəcan, ekstrim yaşamaq arzusuna düşüblər. Bataqlığa yemək ataraq donuzları bataqlıqdakı timsahlara yaxınlaşdıran turistlər donuzların şüursuz davranacağına əmin olublar. Nəticədə ac donuzlardan biri timsahın yaxınlığındakı yemə yaxınlaşaraq sonuncunun onu yeməsinə səbəb olub. Mənzərəni izləyən turistlər bunu videoya çəkərək sosial şəbəkədə paylaşıblar. Onların bu davranışı ciddi etirazlara səbəb olub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.